www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 iyul 2018-ci il Çərşənbə № 153 (7032) Qiyməti 60 qəpik

**Xəbər**

## Gəncədəki terrorla bağlı yeni həbslər-adlar

yazısı səh.3-də

**Gündəm**

### Putin-Tramp görüşünə Bakıdan baxış



ABŞ prezidentinin Putinlə dialoqda sərt mövqe tutmaması ölkəsində qəzəblə qarşılandı; Helsinki görüşü dünyaya nə verdi?

yazısı səh.8-də

### Deputat Naftalanda müalicə mərkəzi tikdirir

yazısı səh.7-də

### Sərdar Cəlaloğlu 50-yə yaxın partiyanı "ölü canlar" adlandırdı

yazısı səh.4-də

### Azərbaycanda dağıdıcı zəlzələ gözlənilirmi - seysmoloqun açıqlaması

yazısı səh.3-də

### İki həmsədr ölkənin görüşündə Qarabağ nonsensi

yazısı səh.10-da

### Enerji üzrə yeni agentliyə böyük səlahiyyətlər verildi-təfərrüat

yazısı səh.6-da

### Ərzaq sürətlə bahalaşır - rəsmi xəbərə ekspert şərhləri

yazısı səh.12-də

### Türkiyədə iki illik FV rejimi ləğv olundu

yazısı səh.10-da

### Gədəbəydə qətl: 17 yaşlı oğlanı bacısı öldürüb, yoxsa...

yazısı səh.14-də

### Karxanaların fəaliyyətinə nəzarət sərtləşdirilir

yazısı səh.12-də

### ÇL: Bu gün "Qarabağ"-"Olimpiya" oyunudur

yazısı səh.15-də

### Qanunsuz tikintilərlə bağlı həbslər başladı

yazısı səh.14-də

# ERMƏNİ İNQİLABI "BALALARINI" YEMƏYƏ BAŞLAYIR - PAŞİNYAN ÜÇÜN GERİSAYIM

İşğalçı ölkənin yeni rəhbərliyi "köhnəlir" - etimad böhranı yaxında; İrəvanın Azərbaycana qarşı "NATO bəhanəsi" də onu xilas etməyəcək, çünki...; **qərbyönlü erməni nəşri:** "Ermənistan üçün hadisələrin sonluğu dəhşətli olacaq..."



yazısı səh.9-da

## Hüseyn Abdullayevlə gizli əlbir olan məmurlar vəzifələrdən qovulur - yeni gəlişmələr

Eks-deputat istintaqla əməkdaşlığı dərinləşdirir; azadlığa çıxmaq üçün bütün gizli məlumatları, əlaqə xəritəsini paylaşır; Avropadakı əmlakını dövlətə qaytarmaq üçün bazarlıqlara başlayıb...

yazısı səh.5-də



### Şeyxülislam Gəncəyə gedib dindarlarla görüş keçirdi

yazısı səh.4-də



### Eldar Əzizov kollektivə təqdim olundu: BŞİH-də nələr dəyişəcək?

yazısı səh.6-da



### İlqar Məmmədov Şəkiyə etap olunacaq - yeni məhkəmə başlayır

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018



## Sürücülük vəsiqələrinin verilməsi və dəyişdirilməsi üçün rüsumlar artırıldı

**Sürücülük vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi üçün dövlət rüsumu artırılıb. "Trend"in məlumatına görə, bu barədə məsələ "Dövlət rüsumu haqqında" Qanuna dəyişiklikdə öz əksini tapıb.**

Dəyişikliyə əsasən, 18.65.5.1-ci maddədə (Sürücülük vəsiqəsinin verilməsi və ya sürücülük vəsiqəsinin dəyişdirilməsi) "18" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilib.

Qeydiyyat şəhadətnaməsinin verilməsi (18.65.7-ci maddə) üçün isə dövlət rüsumu hazırkı 17 manatdan 25 manata qaldırılıb.

Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov sayta bildirib ki, rüsumla bağlı qanuna edilən dəyişikliklər artıq rəsmi olaraq dərc edilib və həmin gündən qüvvəyə minir.

## Axtarışda olan 28 nəfər saxlanıldı

**İyulun 16-dan 17-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələrin statistikası açıqlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 107 cinayət faktı qeydə alınıb, onların da 16-sı "isti izlər"lə açılıb.**

Axtarışda olduğuna görə ümumilikdə 28 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 2 nəfər, borclu şəxs qismində axtarışda olan 20 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 2 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 1 nəfər ölüb, 4 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 6, qanunsuz saxlanılan silah-sursatla bağlı 4 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 17 nəfər saxlanılıb.

## Paşinyan Ter-Petrosyanla Qarabağ üzrə müzakirələrə başladı

**Ermənistanın baş naziri Nikol Paşinyan və ölkənin birinci prezidenti Levon Ter-Petrosyan Qarabağ problemini və Ermənistanın qarşısında duran çətinlikləri müzakirə ediblər.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, görüş Ter-Petrosyanın təşəbbüsü ilə iyulun 16-da baş tutub.

"Ter-Petrosyan bu problemlərlə bağlı fikirlərini bölüşüb. Həmçinin Qarabağ problemi və xarici siyasət müzakirə edilib", - məlumatda bildirilib.

## Bolqarıstan Bakıdakı konsulluğunu 15 günlük bağladı

**Bolqarıstanın Azərbaycandakı səfirliyinin konsulluq şöbəsi 31 iyul - 14 avqust tarixlərində fəaliyyət göstərməyəcək. Səfirlikdən "Trend"ə verilən məlumata görə, bu müddət ərzində sənəd qəbul olunmayacaq, viza verilməyəcək, notarial təsdiqlər edilməyəcək.**

Bu müddət ərzində ərizəçilər öncədən 15 avqust tarixinə növbə götürə bilərlər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# BQXK: "Müəyyən məlumat var ki, bunlar yalnız ailə üçündür"



**İşğal altında olan doğma rayonları Kəlbəcərə gedərkən Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan ordusu tərəfindən girov götürülməsindən 4 il ötür. Bu günə qədər adıçəkilən azərbaycanlı girovların azad olunması mümkün olmayıb. Artıq bir neçə aydır ki, girovların yaxınları onlardan bir xəbər ala bilmədikləri üçün narahatlıqlarını bildirir. Buna görə də bəzən cəmiyyətdə Beynəlxalq Qızıl Xaç Komitəsinin girovlarla bağlı üzərinə düşən işi lazımınca yerinə yetirmədiyi barədə fikirlər səslənir.**

Məsələ ilə bağlı Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Bakı nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova "Yeni Müsavat"a açıqlama verərək, qurumun əslində mandatının nədən ibarət olduğu, hansı vəzifələri yerinə yetirdiyi barədə izahat xarakterli məlumat verib:

"Ümumiyyətlə, Beynəlxalq Qızıl Xaç Komitəsinin saxlanma yerlərinə baş çəkməsinin 3 məqsədi var - saxlanma şəraiti və saxlanılan şəxslə olan rəftarın monitorinqi və ailə əlaqələrinin bərpa edilməsi üçün xidmətlərin təklifi. Yəni, komitə bu xidmətləri təklif edir, saxlanılan şəxs və ya onun ailə üzvləri həmin xidmətlərdən imtina edə və yaxud qəbul edə bilər, bu onların hüququdur. BQXK öz üzərinə düşən öhdəlikləri, saxlanılan şəxslərlə bağlı mandatına uyğun fəaliyyətləri həyata keçirir.

BQXK Dağlıq Qarabağ münaqişəsi zamanı saxlanılan şəxslərə mütəmadi baş çəkir. Sadəcə, dünyanın hər yerində olduğu kimi, bu regionda da BQXK baş çəkdiyi şəxslər və onlarla görüşlər barədə ictimaiyyətə açıqlama vermir, yalnız bu haqda ailələrinə məlumat verilir. Saxlanma yerlərinə başçəkmələr, BQXK-nın səlahiyyətli orqanlarla həyata keçirdiyi konfidensial iki tərəfli dialoqun bir hissəsidir.

Bizim mandatımızla saxlanılan şəxslərin azad edilməsi hüququmuz yoxdur, yəni bu bizim səlahiyyətimizə aid deyil".

**İlahə Hüseynova qurumun Dağlıq Qarabağda saxlanılan azərbaycanlılarla sonuncu görüşündən də danışıb:** "Sonuncu olaraq saxlanılan həmin şəxslərə iyun ayında baş çəkmişik. Müəyyən məlumat var ki, bunlar yalnız ailə üçündür. Buna görə də bu haqda ictimaiyyətə açıqlama verilmir".

**İlahə Hüseynova onu da qeyd edib ki, BQXK iyunun 15-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində düşmənin kəşfiyyat-diversiya qrupu qoşunlarının təmas xəttini keçməyə cəhd göstərərkən saxlanılan Karen Kazaryana baş çəkib, saxlanılma şəraiti ilə tanış olub:**

"BQXK dünyanın hər bir yerində tərəfindən, kimliyindən asılı olmayaraq münaqişə nəticəsində saxlanılan şəxslərə baş çəkir, saxlanma şəraiti və onlarla rəftarla maraqlanır, ailələri ilə əlaqənin bərpa edilməsinə çalışır.

BQXK münaqişə nəticəsində saxlanılan sonuncu şəxslə də bağlı əlaqədar qurumlarla konfidensial dialoq aparır".

❑ **Xalidə GƏRAY**
**"Yeni Müsavat"**



## Bakıda və rayonlarda qısamüddətli yağış yağacaq

**İyulun 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti bildirir ki, havanın temperaturunun Abşeron yarımadasında gecə 24-26, gündüz 29-34, Bakıda gecə 24-26, gündüz 32-34 dərəcə isti olacağı gözlənilir.

Çimərliklərdə əlverişli hava şəraiti müşahidə olunacaq. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Abşeron yarımadasında mövsümə uyğun temperatur rejimi meteohəssas insanlar üçün nisbətən əlverişlidir.

Azərbaycanın rayonlarında əsasən gecə və axşam bəzi dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 20-25, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 22-27 dərəcə isti olacağı gözlənilir.

## Xəzəryanı ölkələrin sammiti avqustun 12-də keçiriləcək

**"Xəzəryanı ölkələrin sammiti avqustun 12-də Aktauda keçiriləcək".**

"RİA Novosti" xəbər verir ki, bu barədə Qazaxıstanın xarici işlər naziri Kayrat Abdraxmanov məlumat verib.

"Hazırda Qazaxıstan, Azərbaycan, İran, Rusiya və Türkmənistan xarici işlər nazirlikləri sammitə hazırlıqla bağlı fəal iş görürlər", -deyə o əlavə edib.

Nazirin sözlərinə görə, bütün tərəflər sammitdə iştirakını diplomatik kanallar vasitəsilə təsdiqləyib.

## Azərbaycana gələn turistlərin sayı 10,2% artıb

**Bu ilin yanvar-iyun ayları ərzində Azərbaycana dünyanın 189 ölkəsindən 1325,0 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Bu barədə Dövlət Sərhəd Xidmətindən bildirilib.**



Gələnlərin 30,5%-i Rusiya Federasiyası, 21,1%-i Gürcüstan, 11,1%-i İran, 10,8%-i Türkiyə, 3,6%-i Birləşmiş Ərəb Əmirlikləri, 2,1%-i İraq, 2,0%-i Ukrayna, 18,7%-i digər ölkələrin vətəndaşları, 0,1%-i isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 68,5%-ini kişilər, 31,5%-ini isə qadınlar təşkil edib. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin 14,1%-i yanvar, 12,5%-i fevral, 20,9%-i mart, 16,5%-i aprel, 15,7%-i may, 20,3%-i isə iyun ayında ölkəyə gəlib.

Cari ilin yanvar-iyun aylarında Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Ötən ilin yanvar-iyun ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 5,1 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 3,5 dəfə, Bəhreyn vətəndaşlarının sayı 2,6 dəfə, Qətər vətəndaşlarının sayı 2,1 dəfə, Oman vətəndaşlarının sayı 1,6 dəfə, İraq vətəndaşlarının sayı 44,3 faiz, Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı 8,8 faiz artıb. İrandan gələnlərin sayında 18,8 faiz azalma müşahidə edilib. Körfəz ölkələrindən gələnlərin ümumi sayı 4,9 faiz artaraq 276,6 min nəfər təşkil edib və ümumilikdə ölkəmizə gələnlərin demək olar ki, hər beş nəfərindən biri Körfəz ölkələrindən olub.

## Ermənistanın müdafiə naziri də oğlunu Qarabağa göndərdi

**Baş nazir Nikol Paşinyanın ardınca Ermənistanın müdafiə naziri David Tonoyan da oğlunu hərbi xidmətə yollayıb.**

Musavat.com xəbər verir ki, Edqar Tonoyan 16 iyulda hərbi xidmətə gedib. O da Paşinyan kimi, Azərbaycanın işğal olunmuş ərazilərində, Qarabağda xidmət keçəcək.

Bu fakt Ermənistan hakimiyyətinin həyasızlığının növbəti nümunəsi olmaqla yanaşı, fərari ermənilərin orduya cəlb olunması istiqamətində atılan addımdır. Xatırladaq ki, erməni ordusunda xidmətdən imtina etmiş 15 min nəfər erməni gənc ölkə xaricinə qaçıb.

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018

# Gəncədəki terrorla bağlı həbslər davam edir - yeni gəlişmə

## Ekspert: “Eldar Mahmudovun nazirliyi dövründə Suriyaya gedənlər çox olub”

**Terrora məruz qalan Gəncənin icra başçısı Elmar Vəliyevi əməliyyat etmiş Türkiyədəki Bahçeşehir Universitetinin tibb fakültəsinin dekanı, məşhur beyin cərrahı, professor Türker Kılıçın köməkçisi Gülşah Öztürk açıqlama verib.**

“Elmar Vəliyevin sağlıq durumu getdikcə yaxşılaşır. Ümid edirik ki, xəstənin vəziyyəti yaxın vaxtlarda, getdikcə daha da yaxşı olacaq” deyə, köməkçi modern.az-a açıqlamasında bildirib.

Köməkçi deyib ki, Türker Kılıç Elmar Vəliyevin səhhəti ilə bağlı tez-tez onun yaxınları və bəzi mənbələrlə əlaqə saxlayır: “Gəncəyə dəvət edilərkən ilk dəfə Elmar müəllimin beyin əməliyyatını Türker Kılıç edib. Əməliyyatın nə qədər çəkdiyi və necə keçdiyi barədə isə məlumat verə bilmərik. Məndə hazırda xəstənin harada müalicəsini davam etdirdiyi barədə də məlumat yoxdur. Onu deyə bilərəm ki, Türker Kılıç tez-tez Elmar Vəliyevin səhhəti ilə maraqlanır və xəstənin sağlıq durumu getdikcə yaxşılaşır”.

Qeyri-rəsmi məlumatlara və sosial şəbəkələrdə paylaşılan fotoya əsasən, Elmar Vəliyevin hazırda İsraildə müalicə olunduğu bildirilir.

İyulun 3-də Elmar Vəliyevə qarşı terrorda və 10-da Gəncədə baş vermiş qanlı cinayətlərdə ittiham olunan daha 4 nəfər iyulun 16-da saxlanılıb. Tutulanlardan Ceyhun Ələkbər oğlu Qurbanov Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin və barəsində terror aktı planlaşdırılan digər şəxslərin izlənilməsində ittiham edilir. Sonradan bu məlumat Yunis Səfərova ötürülüb. Məlumata görə, Ceyhun Qurbanov Yunis Səfərovun yaxın qohumudur. Tutulanlardan Vüqar Rauf oğlu Allahverdiyev və Ülvi Saləddin oğlu Həsənov iyulun 10-da Gəncədə baş vermiş hadisələrin fəal iştirakçıları olublar. Alim Vahid oğlu Yusifov isə kütləvi iğtişaşlarda iştirak etmək məqsədilə kriminal aləmin bir neçə nümayəndəsini Şəmkirdən Gəncəyə çatdırıb. Hazırda əməliyyatlar davam edir.

Yada salaq ki, Yunis Səfərovun Qum şəhərində dini təhsil aldığı və Suriyada döyüşlərdə iştirak etdiyi də məlum olub. Elmar Vəliyevin həyatına sui-qəsd etmiş Yunis Səfərovun hərbi təlimlər keçmək və döyüşlərdə iştirak etmək üçün Suriyaya göndərmiş Tohid İbrahimbəyli haqda da məlumatlar da yayılıb. Tohid İbrahimbəylinin bu istiqamətdə İranda dini təhsil alan azərbaycanlı tələbələrə xüsusi diqqət yetirdiyi məlum olub.

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) şöbə rəisi Suad Mahmudov bu yaxınlarda verdiyi açıqlamada Suriyada döyüşlərdə iştirak etmək üçün 1000 nəfər Azərbaycan vətəndaşının bu ölkəyə üz tutduğunu bildirib.** “Bu, nəyin nəticəsində baş verib? Təbii ki, reklamın. Hər bir münaqişənin ekstremistlərə məxsus kütləvi informasiya vasitələrində, internet saytlarında, eyni zamanda sosial şəbəkələrdə aparılan süni təbliğatı buna təsir etdi. Niyə Suriyadakı hadisələrə qoşulan çox oldu? Çünki bu hadisələrin təbliğatına daha çox önəm verildi, daha çox vəsait ayrıldı. Təbii ki, bütün bu proseslər DTX tərəfindən ciddi nəzarətə götürülür. Bunların qarşısının alınması üçün tərəfimizdən tədbirlər həyata keçirilir. Nəticədə bu gün Azərbaycanda dini radikalizm prosesinin qarşısı alınır” - deyə, o bildirib.

Bundan əvvəl isə Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri Mədət Quliyev 900-ə yaxın Azərbaycan vətəndaşının Suriyaya getməsi haqda məlumat vermişdi. Demişdi ki, Suriyadakı döyüşlərdə 350 Azərbaycan vətəndaşı öldürülüb, bir qismi isə itkin düşüb.

**Təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl deyir ki, Suriyada döyüşərək ölkəyə qayıtmış şəxslərin həbs olunması haqda xəbərlər də var:** “Bundan başqa, İraqda orada döyüşmüş Azərbaycan vətəndaşlarının ailələrinin həbs olunduğu haqda da məlumat yayılmışdı, geniş müzakirə edilmişdi”.

**İlham İsmayıl qeyd edib ki, Azərbaycandan Suriyaya axın Eldar Mahmudovun adı ilə bağlıdır:** “Eldar Mahmudov milli təhlükəsizlik naziri olan zaman Suriyaya getmək istəyənlərə şərait yaradırdılar. Bunun müqabilində pul alırdılar. Bir növ bu məsələni biznesə çevirmişdilər. Fikirlərindən daşınanları, getməyənləri də şantaj edirdilər. Deyirdilər ki, sizi Suriyaya gedib-gəlmiş şəxs kimi həbs edəcəyik. Həmin dövrdə Türkiyə siyasəti də elə idi ki, sərhədlərdə getmək istəyənlərə mane olmurdular. Uzun müddət belə vəziyyət davam etdi. Yalnız məsələ böyüyəndən sonra Türkiyə bu məsələyə diqqət yetirdi, sərhədlərdə nəzarət gücləndirildi. 2015-ci ildən sonra Azərbaycan xüsusi xidmət orqanları Türkiyə xüsusi xidmət orqanları ilə birgə xüsusi əməliyyatlar keçirməyə başladı, Suriyaya getmək istəyən Azərbaycan vətəndaşları geri qaytarıldı. Eldar Mahmudovun nazirliyi dövründə Suriyaya gedənlər çox olub. Onların getməsi üçün təbliğat da aparılıb, hətta ölkənin içində də həmin qüvvələr tərəfindən terrora cəhdlər də baş verib”.

**İlham İsmayıl deyir ki, Gəncədə həbs edilən Yunis Səfərov və onun ətrafının da Quma, oradan Suriyaya getməsi məsələsi diqqətlə araşdırılmalıdır:** “Quma ayaq basan adam İŞİD-ə qoşulmaz. İŞİD-dəkilər tamam başqa xarakterli radikal dindarlardır. Suriyaya Əsədi müdafiə etmək üçün təxminən 1 ay ərzində Azərbaycandan 20 nəfər getmişdi. Onların bir neçəsinin meyiti gətirildi, bundan sonra digərləri də qayıdıb gəldilər. Suriyada İranın yalnız rəsmi ordusunun güc tətbiqi olub. Suriyada İran vətəndaşlarından ibarət könüllü dəstə olmayıb. Azərbaycanlıların Quma getdikləri faktdır. Quma qanuni və qanunsuz yollarla getmək faktı inkar olunmur. Bilirik ki, orada heç də yalnız dini təhsil vermirlər. Hərbi hazırlıq, təxribatçılıq da öyrədilir. Bu məsələni Suriyaya bağlamaq o qədər də doğru deyil. Deyilməlidir ki, adamlar Qumda təhsil alıblar və təlim keçiblər. Onlara təlim keçən konkret şəxslərin adları çəkilməlidir. Tohid İbrahimbəyli həmin işdə neçənci dərəcəli adamdır. Yəni Tohid İbrahimbəyli kimdir ki, İran ərazisində belə işlərlə məşğul olsun? Onun İran xüsusi xidmət orqanlarının nəzarətindən kənar olması inandırıcı deyil. O, kənardan pas verən adamdır. Söhbət ETTELA-AT-dan gedir. Qum təhsil mərkəzində konkret adamlar var, belə şəxsləri onlar hazırlayırlar”.

**İlham İsmayıl deyir ki, Quma gedib gələnlərə nəzarət var:** “Hətta Eldar Mahmudovun dövründə də belə nəzarət vardı. Bizim xüsusi xidmət orqanları bu yöndə daim işləyirlər. Ora gedib gələnlərin orada kiminlə təmasda olduqları, hansı məsciddə kiminlə namaz qıldıqları, harada yaşadıqları və s. məlumatlar olub. Mümkündür ki, hər yerdə - Bakıda nəzarət bir qədər güclü, əyalətdə isə bir qədər zəif olsun. Azərbaycan xüsusi xidmət orqanlarının ən uğurlu işləri bu istiqamətdə olub. Gəncə hadisələrində məsələni bütünlüklə dinin üzərinə atmaq da düzgün deyil”.



Yayılan məlumatlarda Tohid İbrahimbəylinin 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərində Qum və Məşhəd şəhərlərində dini təhsil alan 14 nəfərin Suriya ərazisində İŞİD-lə mübarizə üçün azərbaycanlı tələbələrdən ibarət “Hüseyniyyun” (Hüseynçilər) adlı silahlı dəstə yaratmaq niyyətində olduğunu bildirilib. T. İbrahimbəyli həmin 14 tələbəni əvvəlcə Qum şəhərində İsgəndər Hüseynovun iş yerində (“Nur” Tərcümə Müəssisəsi) toplayıb, 1 gün gözlədikdən və təlimatlandırdıqdan sonra Suriyanın paytaxtı Dəməşq şəhəri yaxınlığında yerləşən hərbi hissəyə aparıb. Dəməşq şəhərində olarkən T.İbrahimbəyli onları təkcə İŞİD-lə mübarizəyə deyil, həm də Azərbaycanda silahlı münaqişəyə hazırlamaq niyyətində olduqlarını bildirib. 25 günlük təlimdən sonra onlar 4-5 nəfərlik qruplara ayrılıb, T.İbrahimbəyli bu qruplardan biri ilə Suriyanın Tedemor şəhərinə gedib. Həmin şəhərdə 20 gün qaldıqdan sonra T.İbrahimbəylinin olduğu qrup Məşhəd şəhərinə qayıdıb. Bir müddətdən sonra T.İbrahimbəylinin təklifi ilə hərbi təlim keçmək üçün həmin qrup yenidən Suriyaya gedib. Həmin tələbələrdən biri olan Elmir Zahidov 10 gündən sonra hərbi təlimdən imtina edərək Məşhəd şəhərinə geri qayıdıb. E.Zahidov həmin təlimdən imtina etdiyinə görə təhsil aldığı Xoi mədrəsəsinin rəhbərliyi tərəfindən sıxışdırılıb və T. İbrahimbəyli tərəfindən təhqir edilib. E.Zahidov 2018-ci ilin iyun ayında təhsilini yarımçıq qoyaraq Azərbaycana qayıdıb. Digər tələbələr isə Suriyada hərbi təlimdə iştirak ediblər. Xatırladaq ki, bundan əvvəl APA-nın hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, mütəmadi olaraq Azərbaycan dövlətçiliyi əleyhinə radikal çağırışlar edən Tohid İbrahimbəyli hələ 2017-ci ilin yanvarında radikal təriqətçilərə məxsus “nur-az.com” internet saytı vasitəsilə Elmar Vəliyevin öldürülməsinə çağırış edib. Yunis Səfərovla bağlı məlumatın araşdırılması zamanı məlum olub ki, bir sıra Azərbaycan vətəndaşları 2013-2016-cı illər ərzində Tohid İbrahimbəyli tərəfindən Qum şəhərində toplanaraq maddi maraq qarşılığında qanunsuz silahlı birləşmələrin tərkibində döyüşlərdə iştirak etmək üçün Suriya ərazisinə göndərilib. İstintaq zamanı Taleh Həsən oğlu Göyüşov və Tohid İbrahimbəylinin yaxın qohumları Həbib Əkbər oğlu İbrahimli, Pərviz Əlimusa oğlu Musayev, Elmir Savadxan oğlu Ziyadovun Yunis Səfərovla birgə Qum şəhərində Tohid İbrahimbəyli tərəfindən təşkil edilmiş gizli toplantıda və Suriya ərazisində qanunsuz silahlı birləşmələr tərkibində döyüşlərdə iştirak etdikləri müəyyən edilib. Həmçinin müəyyən olunub ki, Taleh Göyüşov bu ilin 10 iyul tarixində Gəncədə polis əməkdaşlarına soyuq silahla hücum edilməsi ilə müşayiət olunan qanunsuz aksiyanın fəal iştirakçısı olub. Qeyd edilən şəxslər 14 iyul tarixində Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb və cinayət məsuliyyətinə cəlb olunublar.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# “Azərbaycanda dağıdıcı zəlzələ gözlənilmir” - seysmoloq

**İranın şimal-şərqində 4,9 bal gücündə zəlzələ baş verib. “UTC” vaxtı ilə saat 03:58-də qeydə alınan zəlzələnin episentri Bocnurd şəhərindən 38 kilometr cənub-şərqdə, ocağı isə 2 kilometr dərinlikdə yerləşib. Zəlzələ nəticəsində xəsarət alanlar və dağıntılar barədə hələlik məlumat yoxdur. Təxminən eyni vaxtda qonşu və qardaş Türkiyədə də yeraltı təkan qeydə alınıb.**

Bəs qonşu dövlətlərdə zəlzələlərin Azərbaycana təsiri varmı, ümumiyyətlə, ölkəmizdə seysmoloji vəziyyət hazırda necədir?

Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli “Yeni Müsavat”a açıqlamasında İran və Türkiyədə baş verən zəlzələlərin Azərbaycana aidiyyəti olmadığını dedi: “Ayrı-ayrı regionda dinamik proseslər gedir. Bizim dərinlik qırılmaları ilə İranda və Türkiyədə baş verən zəlzələlərin əlaqəsi yoxdur. Azərbaycanda da seysmoloji təkanlar həmişə olur. Bu, hər yerdə var. Elə bir bölgə yoxdur deyək ki, lap güclü, katostrafik zəlzələ olacaq. Hiss olunan zəif təkanlar olmalıdır və olur da. Lakin yaxın müddətdə dağıdıcı zəlzələ gözlənilmir”.

❑ **Ləman MUSTAFAQIZI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018

# Şeyxülislam Gəncəyə gedib dindarlarla görüş keçirdi

## QMİ sədri: "Bu hadisələr bizi çox məyus etdi"

**İyulun 17-də Gəncə şəhərində yerləşən İmamzadə Dini Kompleksində din xadimlərinin müşavirəsi keçirilib. Müşavirədə Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, din xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

"Report" agentliyinin məlumatına görə, müşavirədə çıxış edən Şeyxülislam bildirib ki, Gəncə hadisələri düşünülmüş şəkildə ölkədəki sabitliyi, əmin-amanlığı pozmaq, dövlətə və dövlət xadimlərinə qarşı təxribatdır. Şeyx bildirib ki, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə açılan atəş dövlətçiliyə açılan atəş olub: "İyulun 10-da isə insanların keşiyində dayanan iki polisimizin şəhid olması bir daha göstərir ki, bu, məqsədyönlü şəkildə aparılan bir siyasət olub. Bunun arxasında Azərbaycanda iğtişaş törədilməsi məqsədini güdən, Azərbaycanın inkişafını istəməyən qüvvələr durur. Mən dindarlarımızdan, din xadimlərimizdən çox razıyam. Onların hamısı bu məsələni pislədi".



**QMİ sədri qeyd edib ki, təxribatın törədilməsində qonşu dövlətlərin, xüsusən də Ermənistanın, onların yoldaşlarının, əlaltılarının və köməkçilərinin əli var. O bildirib ki, Ermənistan katolikosu özü ermənilərin Azərbaycana qarşı təxribat törətdiklərini etiraf edib:** "Mən sonuncu dəfə Qaraginlə görüşəndə ona dedim ki, axı siz niyə bizə qarşı bu qədər təxribatlar edirsiniz? O da mənə dedi ki, siz çox inkişaf etmisiz, güclü dövlətsiz, boynuna aldı ki, mən də Azərbaycana qarşı təxribatlar aparıram. Əgər Qaragin bunu mənim üzümə deyirsə, deməli, bu təxribatları başqalarının əli ilə də olsa edə bilər".

**A.Paşazadə bildirib ki, terrorun təşkilatçıları Azərbaycanın beynəlxalq arenada nüfuzunun yüksəlməsini, siyasi, iqtisadi və digər sahələrdə qazanılan uğurlarını gözü götürməyən qüvvələrdir. Şeyx qeyd edib ki, Gəncədə bu hadisənin baş verməsi onu məyus edib:** "Gəncə həmişə bizim diqqət mərkəzimizdədir. Çünki İmam Hüseyn şəhəridir. Gəncədə baş verən sonuncu hadisələr bizi çox məyus etdi. Bu hadisələri biz terror aktı kimi qiymətləndiririk".

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı də Gəncədə baş verənləri terror aktı kimi qiymətləndirib. Komitə sədri deyib ki, bu hadisəni törədənlər din pərdəsi altında öz çirkin niyyətlərini həyata keçirən cinayətkarlardır:** "Bu hadisələrin ssenarisi əvvəlcədən hazırlanıb. Onların məqsədi Azərbaycanda siyasi, ictimai sabitliyi pozmaq və Azərbaycan xalqının sosial rifah halını aşağı salmaq və müstəqilliyinə xələl gətirməkdir. Lakin bu ssenarini həyata keçirmək istəyənlərin niyyəti baş tutmadı. Onlar tam iflasa uğradılar".

**M.Qurbanlı ölkə başçısının hadisələrə hüquqi, siyasi qiymət verdiyini deyib:** "Bu cinayəti törədənlərin İslam dininə və müsəlmanlara heç bir aidiyyəti yoxdur. Bu cinayətkarlar Azərbaycana qarşı olan dairələrin nümayəndələridir. Bunların əməlləri cəzasız qalmayacaq və onlar ədalət məhkəməsi qarşısında mütləq cavab verəcəklər".

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**



### Yaşasaydı, 51 yaşı olacaqdı...

**İyulun 17-si "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun doğum günüdür, dünən onun 51 yaşı tamam olub.**

Elmar Hüseynov 2005-ci il martın 2-də Bakının mərkəzində yaşadığı evin qarşısında Gürcüstandan olan muzdlu qatil tərəfindən odlu silahdan açılan 7 güllə ilə qətlə yetirilib.

Elmar Hüseynov 17 iyul 1967-ci ildə Bakıda anadan olmuşdu. O, 1992-ci ildə Azərbaycan Mühəndis-İnşaatçılar İnstitutunu mühəndis-hidrotexnik ixtisası üzrə bitirmişdi. Bir müddət Xudafərin SES-də və Rusiyada Boquçan SES-də ixtisası üzrə çalışmışdı.

Elmar Hüseynov 1995-ci ildən etibarən jurnalist fəaliyyətinə başlamışdı. Həmin ildə də "Trend" analitik-informasiya agentliyini, 1996-cı ildə isə "Monitor" jurnalını təsis etmişdi.

O, həmçinin "Bakinski bulvar", "Bakinskiye vedomosti" qəzetlərinin təsisçisi idi.

Jurnalistin yeganə oğlu hazırda Norveçdə yaşayır.

# Sərdar Cəlaloğlu 50-yə yaxın partiyanı "ölü canlar" adlandırdı

## Fəaliyyətsiz partiyaların ləğvi məsələsi yenidən gündəmdə

**"Azərbaycanda faktiki olaraq 6-7 partiya geniş və ya məhdud şəkildə fəaliyyət göstərir, yerdə qalan partiyaların mövcudluğuna, qeydiyyatda saxlanmasına ehtiyac yoxdur". Bu barədə ADP sədri Sərdar Cəlaloğlu modern.az-a açıqlamasında deyib. S.Cəlaloğlu düşünür ki, fəaliyyətsiz partiyalarla bağlı qanunda ciddi boşluq var: "Nəticədə fəaliyyəti olmayan siyasi təşkilatlar yaradılır və beləliklə insanlarda da çaşqınlıq yaranır ki, ölkədə 55 siyasi partiyanın olmasına baxmayaraq, onlardan heç biri xalq qabağında vəzifələrini yerinə yetirmirlər.**

Bu partiyaların böyük əksəriyyəti 1993-cü illərdə qeydiyyatdan keçib. 20-30 il keçməsinə baxmayaraq, demək olar ki, partiyaların fəaliyyətsizliyi müşahidə edilir. Mən siyasi partiya sədriyəm, lakin 6-7 partiyadan başqa digərlərinin adını bilmirəm, nəinki onların fəaliyyəti barədə. Həmin siyasi təşkilatların rəhbərləri yoxdur, ölkənin ictimai-siyasi həyatı ilə bağlı bu günə qədər nə bir bəyanatları, çıxışları, nə də münasibətləri var. Bu partiyalar bir növ "ölü canlar" kimi saxlanılır. Bu da Azərbaycanda guya çoxpartiyalı siyasi sistemin mövcudluğunu imitasiya edir. Odur ki, uzun illər ərzində funksiyalaşmayan partiyaların qeydiyyatı avtomatik ləğv olunmalıdır. Seçkilərdə iştirak etməyən partiyaların ləğv olunacağını deyirdilər. Lakin bu təkcə seçkilərlə bağlı olmamalıdır. Seçki partiyanın seçimindən asılıdır. Yaxşı fəaliyyət göstərməyən, ən azı ictimai rəyi tənzimləməyən partiyalar, əlbəttə, ləğv olunmalıdır. Həmin partiyalar ləğv edilsə də, buna kimsə etiraz etməyəcək. Onsuz da onlar yoxdurlar, sadəcə, hər şey kağız üzərindədir. Gərək bu cür formal vəziyyət aradan qaldırılsın".



Xatırladaq ki, bir müddət öncə YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov da uzun müddət fəaliyyəti olmayan partiyaların qeydiyyatının ləğv olunması təklifini vermişdi. Lakin hələ ki bu təkliflər təklif olaraq qalır.

**AMİP katibi Əli Orucov isə "Yeni Müsavat"a bildirdi ki, siyasi partiyaların inzibati üsullarla sayının azaldılması doğru deyil. Bu proses təbii axınla, proseslərin gedişində öz həllini tapmalıdır:** "Bunun üçün də siyasi partiyaların fəaliyyəti üçün normal və əlverişli ortam olmalıdır. Partiyaların nüfuzu və gücü seçkilər zamanı üzə çıxır. Bu gün hansı partiyanı dindirsən özünü ölkənin əsas partiyalarından biri hesab edəcək. Kimin, yaxud hansı partiyanın geniş elektorata və nüfuza sahib olduğunu seçki yolu ilə müəyyənləşdirmək mümkün olmadığından əsas partiyaları da müəyyənləşdirmək mümkün deyil. Biz bunu dəfələrlə praktikada görmüşük. Keyfiyyət yox, kəmiyyət önəmlidir yanaşmasından kəmiyyət yox, keyfiyyət önəmlidir yanaşması lazımdır. Bu həm də siyasi institutların da, dövlətin də möhkəmləndirilməsində xüsusi rol oynayacaq. Partiyaları bağlamaq yox, onların inkişafına dəstək vermək lazımdır"

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, bu gün Ədliyyə Nazirliyindən rəsmi qeydiyyatdan keçmiş 54 siyasi partiya var, AĞ Partiya da bu siyahıdadır. S.Cəlaloğlunun fikirlərində isə həqiqət var ki, bu partiyalardan cəmi 5-10-u fəaliyyət göstərir. Digərləri qeydiyyatdan keçdikləri gündən bu yana heç bir fəaliyyət göstərməyib, heç bir seçkilərdə iştirak etməyib:** "AĞ Partiya olaraq biz də özümüzü Azərbaycan siyasi səhnəsində real fəaliyyət göstərən və müxalif partiya kimi iqtidarla siyasi mübarizə aparan partiya hesab edirik. Demək olar ki, 2018-ci il prezident seçkiləri daxil biz son illərdə olan bütün seçkilərdə iştirak etmişik və siyasi hadisələrə qurum olaraq bəlirli yön verməyə çalışmışıq. Yeni bizim fəaliyyətsiz bir partiya kimi qeydə düşmək problemimiz yoxdur. Ancaq buna baxmayaraq, mən Sərdar bəyin partiyaların sayını inzibati yolla azaltmaq təklifi ilə razı deyiləm. Çünki ilk növbədə bu, demokratik bir addım olmazdı. Mən təbii və sağlam siyasi rəqabətin tənzimləməsinin tərəfdarıyam. Belə ki, zatən fəaliyyətsiz olan siyasi partiyalar özləri təbii şəkildə sıradan çıxacaqlar. Xalq heç zaman siyasi passiv qüvvələrə dəstək verməyəcək, bu da siyasi səhnənin təmizlənməsi ilə yekunlaşacaq. Hər şeyi inzibati rıçaqlarla həll etməyə çalışmaq və bunu ənənə halına salmaq yaxşı fikir deyil".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018

**Keçmiş deputat, hazırda həbsdə olan Hüseyn Abdullayevin həbsə 2-ci "gedişi" gözlənilməz olduğu kimi, özünün 4 divar arasındakı davranışları da heyrətamizdir. Hər halda, gələn məlumatlar, iddialar eks-deputatın "təki azadlığa buraxsınlar" istəyinin gerçəkləşməsi üçün nələrə hazır olduğunu ortaya qoyur. Əlbəttə ki, həbsə alınan hər kəs tezliklə azadlığa qovuşmasını istəyər, bu yolda addımlar atar və hərəkət edər. Hüseyn Abdullayevin bu yöndə hərəkətliliyi təqdirəlayiqdir. Lakin bir məqam var: o, azadlığa çıxmaq üçün vaxtilə ona gizlin kömək etmiş hər kəsi "körpü" etməklə buna nail olmağa çalışır.**

# Hüseyn Abdullayevlə gizli əlbir olan məmurlar vəzifələrdən qovulur - yeni gəlişmələr

## Eks-deputat istintaqla əməkdaşlığa gedib; azadlığa çıxmaq üçün bütün gizli məlumatları, əlaqə xəritəsini paylaşır; Avropadakı əmlakını dövlətə qaytarmaq üçün bazarlıqlara başlayıb...



Belə iddialar var ki, Hüseyn Abdullayev həbsinin ilk günlərində üzləşdiyi rəftardan qurtulmaq üçün qazancı, anasının ölkədən çıxışına kimlərin kömək etməsi kimi məlumatları detallı şəkildə danışmağa qərar verib, Vergilər Nazirliyi, Sərhəd Qoşunlarındakı dostlarının adını çəkib. Həmin şəxslərin kimlikləri, vəzifələri müəyyən olunub və artıq onları işdən çıxarıblar. Son günlər bəzi dövlət idarələrində məmurların toplu halda işdən çıxarılmasının əsas səbəbi məhz Hüseyn Abdullayevin istintaqa açıqlamalarıdır. Onların bəziləri rəsmən elan olunmadan, qanunauyğun şəkildə istintaqın xüsusi yoxlamalarından keçməkdədir.

Hüseyn Abdullayevin sərgilədiyi bu tövr onun özünə qarşı münasibətin bir qədər yumşaldılmasına, şəxsi xahişlərinin yerinə yetirilməsinə yol açıb. Hüseyn Abdullayevin belə xahişlərindən biri də xaricdə olan anasının ölkəyə qayıtmasına izn verilməsi ilə bağlı olub. Onun xahişi yerinə yetirilib. Hüseyn Abdullayevin anası artıq Azərbaycandadır.

Digər bir iddiaya görə isə Hüseyn Abdullayev Azərbaycanda Qərbin işlədiyi şəxslərlə bağlı da bildiklərini istintaqa deyib və "yadına düşdükcə" deməkdədir.

Musavat.com-a bəlli olub ki, Hüseyn Abdullayev istintaqa Azərbaycan hakimiyyəti əleyhinə iş aparan kampanyon və tərəfdarlarının da adlarını açıqlayıb. Üstəlik, o, Avropadakı bir neçə səfirimizlə gizli əlaqələri ilə bağlı da ifadə verib. İşin bir ucunun Moskvadakı milyarder "narazılarla", o cümlədən də Abbas Abbasovla bağlı olması barədə də iddialar var. İstintaq hazırda tutuqlunun verdiyi bu məlumatların nə dərəcədə həqiqət olduğunu araşdırır. Tamamilə mümkündür ki, Hüseyn Abdullayev bazarlıq imkanlarının və güzəştlərin yüksək olması naminə əlaqələri haqda məlumatları şişirtsin.

Arestant özünün Avropadakı biznesi haqda da bütün suallara cavab verib, iddialara görə, xaricdəki (Almaniya, Avstriya, Türkiyə) aşkar-gizli mal varlığının "bəyannaməsi"ni ortaya qoyub. Məlum olduğu kimi, Hüseyn Abdullayev Azərbaycanda qanunsuz yollarla böyük sərvət əldə edib və həmin sərvətin təxminən 100 milyon dollar ekvivalentini ölkəmizdən xaricə çıxartmağa nail olub. Avropaya sığınan kimi də həmin vəsaitləri Azərbaycanın indiki iqtidarına və prezidentə qarşı çirkli kampaniyaları, informasiya müharibəsini maliyyələşdirməyə yönəldib.

Musavat.com-a bəlli olub ki, Hüseyn Abdullayevin Azərbaycanda və ondan kənarda maliyyə dəstəyi verdiyi jurnalistlərin və media quruluşlarının adları da istintaqa bəlli olub. Son günlər yayımı məhdudlaşdırılan və barələrində cinayət işi açılan media quruluşlarından bir neçəsi də (əsasən müxalif və reket təbiətlilər) bu cür gizli yardımların əhatəsinə düşənlərdəndir. Görünür, onlar son Gəncə hadisələrindəki davranışları ilə limiti doldurublar, buna görə də iqtidar belə sərt addımlara gedir...

Lakin Hüseyn Abdullayevin əlində ciddi bir "kozır" da var. Çox qəribədir ki, Avropa təsisatlarından bəziləri onu qorumaq təşəbbüsləri göstərirlər. Məsələn, onun deputat mandatının ləğvi ilə bağlı Avropa İnsan Haqları Məhkəməsinin çıxardığı və icra olunmamış qərar yenidən hərəkətə gətirilib. Hüseyn Abdullayev istintaqla anlaşıb, imtinaya getməsə, analoquna nadir rastlanan həmin qərar icraya yönəldilə bilər. "Quska"nın bu "kozır"dan necə istifadə edəbiləcəyi hələlik məlum deyil...

Qeyd edək ki, Hüseyn Abdullayev aprelin 22-də Türkiyədə yaxalanaraq Azərbaycana gətirilib. O zaman ölkəni silkələyən bu həbs haqda Vergilər, Daxili İşlər Nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətləri birgə məlumat yayımışdılar. Orada vurğulanırdı ki, Vergilər Nazirliyi tərəfindən aparılmış səyyar vergi yoxlaması nəticəsində "Araz İNC" MMC-də 1 milyon 436 min manat məbləğində vəsaiti dövlət büdcəsinə ödəməməsi faktı üzrə 7 iyun 2013-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanıb. 3 oktyabr 2016-cı il tarixdə H.Abdullayevə ümumilikdə 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarılıb. Bundan başqa, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 14 fevral 2018-ci il tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi "Araz-İnşaat" ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Babayev Namiq İsmixan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividentləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də H.Abdullayevin dəfələrlə N.Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan "Autist Uşaqların Reablitasiyasına Kömək" İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlədib tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqaviləsi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq), 178.2.2, 178.2.4, 182.2.1 (hədə-qorxu ilə tələb etmə), 182.2.2 və 182.2.4-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan edilib.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**



Mixail Boçarnikov

# Rusiyanın yeni səfiri danışdı

**"Azərbaycan prezidenti İlham Əliyevin Rusiyaya səfərinə hazırlıq gedir". Bunu APA-ya açıqlamasında Rusiyanın Azərbaycandakı yeni səfiri Mixail Boçarnikov deyib.**

"Heç kəsə sirr deyil ki, biz Azərbaycan prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri ərəfəsindəyik. Ona görə də iki ölkə arasında olan məsələlər aktuallaşmalıdır, tərəflər lazımi sənədləri imzalanmağa hazır vəziyyətə gətirməlidir. Proses gedir. Baxmayaraq k, yay dövrüdür, bizim işimiz gərgindir", - deyə səfir vurğulayıb.

**M. Boçarnikov Azərbaycanda diplomat kimi fəaliyyətə başlamasından danışıb:** "Mən cəmi bir aydır Azərbaycanda səfir kimi fəaliyyət göstərirəm. Ona görə də sizinlə ilk təəssüratlarımı bölüşə bilərəm. İlk təəssüratım ondan ibarətdir ki, Rusiya-Azərbaycan münasibətləri yüksəlişdədir. Bu gün biz Rusiya Ticarət-Sənaye Palatasında olduğumuzdan, iki ölkə arasındakı iqtisadi münasibətlərdən danışmaq istərdim. Rusiya və Azərbaycan arasında iqtisadi münasibətlər sürətlə inkişaf edir. İkitərəfli münasibətlərin gündəliyində olan məsələlər çoxdur. Həm biznes səviyyəsində iş adamlarının, həm də hər iki ölkənin iqtisadiyyat nazirliklərinin nümayəndələrinin görüşləri olduqca vacibdir".

**Rusiyalı diplomat iki ölkə arasında siyasi münasibətlərə də toxunaraq qeyd edib ki, Rusiya və Azərbaycan arasında siyasi münasibətlər çox yaxşı inkişaf edir:** "Hər şey bizim prezidentlərin arasında olan mehriban və şəxsi münasibətlərə söykənir. Belə əhval-ruhiyyə bizim siyasi əlaqələrimizin bütün səviyyələrinə yayılır. Ona görə də mən Rusiya-Azərbaycan münasibətlərinin gələcəyini nikbin görürəm".



Cavad Cahangirzadə

# İran səfiri: "İki ölkə arasında ticarət dövriyyəsi 2 milyard dollara çatacaq"

**Qəzvin-Rəşt-Astara dəmir yolu xəttinin istifadəyə verilməsindən sonra İranla Azərbaycan arasındakı ticarət dövriyyəsinin həcmi 2 milyard dollara çatacaq.**

Bu sözləri İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə Rəşt şəhərində iş adamları ilə keçirdiyi görüşdə deyib. Səfir bildirib ki, hazırda iki ölkə arasında ticarət mübadiləsinin miqdarı gömrüklər vasitəsilə 500 milyon, neft ixracatı üzrə 350 milyon, turizm sektorunda isə 400 milyon dollara çatıb.

Diplomat nəzərə çatdırıb ki, hər iki ölkənin prezidenti siyasi iradə nümayiş etdirərək bütün sahələr üzrə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi məqsədilə səmərəli fəaliyyət göstərirlər. Məhz prezidentlərin fəaliyyətlərinin nəticəsidir ki, İran Astarası ilə Azərbaycan Astarası arasında dəmir yolu xətti çəkilərək istifadəyə verilib. Hazırda bu yol vasitəsilə İran Azərbaycan üzərindən idxal və ixrac əməliyyatlarını həyata keçirir. Gələcəkdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Rəşt-Astara yolu da çəkiləcək və İranla Azərbaycanın ticarət dövriyyəsi artacaq. Bununla yanaşı, Azərbaycan tranzit rolunu oynayaraq İran mallarının Rusiya və Avropa dövlətlərinə daşınmasında əhəmiyyətli rol oynayacaq.

İranlı diplomatın sözlərinə görə, dəmir yolunun istifadəyə verilməsi Azərbaycanla sərhəddə yerləşən Gilan vilayətinin iqtisadiyyatı və əhalisinin sosial vəziyyətini yaxşılaşdıracaq. (AzərTAc)

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018

# Eldar Əzizov kollektivə təqdim olundu: BŞİH-də nələr dəyişəcək?

## "Eldar Əzizovun bundan öncəki fəaliyyəti onun şəhər təsərrüfatına yaxından bələd olduğunu göstərir"

**Xəbər verildiyi kimi, Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizova yeni vəzifə verilib. Belə ki, iyulun 16-da prezident İlham Əliyevin sərəncamı ilə o, Səbayel Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Digər sərəncamla Eldar Əzizov Bakı Şəhəri İcra Hakimiyyəti (BŞİH) başçısının birinci müavini təyin olunub. Bununla da BŞİH bir müavinin ümidinə qalmaqdan qurtulub.**

Öncə xatırladaq ki, prezident İlham Əliyevin aprelin 21-də imzaladığı sərəncamla Nazirlər Kabinetinin yeni tərkibi müəyyənləşdi. Sərəncama əsasən, hökumətin tərkibində xeyli dəyişikliklər oldu. Təyinatlardan biri də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun baş nazirin müavini vəzifəsinə gətirilməsi idi. Abutalıbovdan sonra Bakı şəhər icra başçısının vəzifələrini müvəqqəti olaraq BŞİH-də yeganə müavin olan Fidumə Hüseynova icra edirdi. Ümumilikdə isə BŞİH-də təkcə başçının deyil, onun iki müavininin də yeri boş qalmışdı.

Məlumat üçün onu da qeyd edək ki, BŞİH rəhbərliyində 3 əsas vəzifə var - başçı və iki müavin. Bakı Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Rauf Pənahov ötən il iyulun 20-də vəfat edib. Həmin vaxtdan onun da yerinə təyinat olmamışdı. Digər müavin isə yuxarıda da qeyd etdiyimiz kimi, başçının səlahiyyətlərini icra edirdi.

Eldar Əzizov Rauf Pənahovun yerinə təyin olunmaqla, başçının vəzifələrini artıq o icra edəcək.

Eldar Əzizovun bundan öncəki fəaliyyəti onun şəhər təsərrüfatına yaxından bələd olduğunu göstərir.



E.Əzizovun keçdiyi karyera yoluna qısa şəkildə nəzər salaq.

Eldar Əziz oğlu Əzizov 1957-ci il iyun ayının 28-də Bakı şəhərində anadan olub. 1979-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib. Həmin ildən Azərbaycan Komsomolu Mərkəzi Komitəsində müxtəlif məsul vəzifələrdə çalışıb. 1984-cü ildən Bakı şəhəri 26 Bakı Komissarları rayonunun komsomol komitəsinin birinci katibi, 1987-ci ildən isə Bakı şəhər komitəsinin birinci katibi vəzifələrində çalışıb. 1989-cu ildən Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin katibi vəzifəsinə seçilib. 1991-ci ildən Azərbaycan Gənclər İttifaqı Mərkəzi Komitəsinin katibi vəzifəsində işləyib.

1998-ci ildən Mərkəzi Seçki Komissiyasında beynəlxalq əlaqələr şöbəsinin müdiri, 1999-cu ildən Bakı Şəhər İcra Hakimiyyətində Xarici əlaqələr və investisiya proqramları departamenti sədrinin birinci müavini, 2000-ci ilin mart ayından Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifələrində çalışıb. 2000-ci ilin iyun ayından Bakı şəhər Nizami rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunub. 2003-2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, 2011-2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı olub. 2015-ci ilin sentyabr ayından Səbayel Rayon İcra Hakimiyyətinin başçısı işləyib.

Eldar Əzizov iyulun 17-də kollektivə təqdim olunub. Bununla da o, işlərinin icrasına başlayıb. Lakin bir daha qeyd edirik ki, hələ də Bakı şəhər icra başçısının yerinə təyinat olmayıb.

Bakı şəhər icra başçısı postuna təyinat olmaması ilə bağlı bir çox iddialar var. İddialara görə, Bakıda Böyük Şəhər Bələdiyyəsinin formalaşdırılması planı var. Bu səbəbdən də şəhər başçısı postuna təyinatın olmadığı qeyd olunur. Məsələ ilə bağlı rəsmi açıqlama olmasa da, bu versiya hələ də gündəmdədir.

**"Yeni Müsavat"a danışan ekspert Əzim Məsimov da bildirib ki, hazırda Bakıda Böyük Şəhər Bələdiyyəsinin yaradılması olduqca vacibdir:** "Necə ola bilər ki, rayonun bələdiyyəsi var, ancaq Bakının bələdiyyəsi yoxdur. Bu, çox qəribə haldır. Abşeron yarımadası üçün qərar bir qurumdan verilməlidir. Torpaq istismarı, ümumi Abşeron problemləri hamısı bir mərkəzdən həll edilməlidir. Bu olmadığı üçün əhali nəqliyyat sistemindən, kanalizasiya sistemindən və digər məsələlərdən narazıdır. Şəhərdə hər rayonun öz icra hakimiyyəti var. Hər kəs öz yerində ağa kimidir. Bu hala tezliklə son qoymaq, Bakı Şəhər Bələdiyyəsi yaratmaq işlərin faydasına olar".

Bakı merinin olmaması bu ayın əvvəlində Mingəçevir İES-də baş verən qəza sonrası daha çox hiss edildi. Belə ki, qəza nəticəsində Bakıda elektriklərin kəsilməsi bir sıra problemlərə səbəb oldu. Lakin Bakı Şəhər İcra Hakimiyyətindən kimsə önə çıxıb, hər hansı bir açıqlama vermədi.

Onu da qeyd edək ki, mətbuatda irəli sürülən versiyalarda indiyə kimi BŞİH-ə başçı kimi bir neçə şəxsin adı hallanıb. Onlardan biri Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovdur. Məlumatlara görə, Niyazi Bayramov gənclər və idman naziri Azad Rəhimovun qudasıdır. Digər versiyaya görə, Abutalıbovun yerini "Bakı Ağ şəhər" layihəsinin və "Bakond" şirkətinin baş direktoru Ruslan Sadıxov tuta bilər. Onunla bağlı da mətbuatda xeyli materiallar dərc olunub. Abutalıbovun yerinə əsas namizədlərdən biri kimi isə "AzərGold" qapalı səhmdar cəmiyyətinin sədri Zakir İbrahimovun adı çəkilir.

Yeni yaradılmasına baxmayaraq, "AzərGold" qızıl yataqlarının kəşfiyyatı, qızıl və gümüşün hasilatı və ixracı sahəsində xeyli işlər görüb. Onun fəaliyyəti sayəsində Azərbaycanın qeyri-neft ixracatında qızıl ikinci yerə yüksəlib.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Enerji üzrə yeni agentliyə böyük səlahiyyətlər verildi-təfərrüat

## Agentlik ölkədə elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyəcək

**Prezident İlham Əliyev "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq olunmasına dair fərman imzalayıb.**



Fərmanda Nazirlər Kabinetinə yerli və xarici ekspertləri, habelə beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə, elektrik qurğularının quraşdırılması; elektrik və istilik qurğularının texniki istismar; elektrik və istilik qurğularının istismarında təhlükəsizlik texnikası; elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində payız-qış mövsümünə hazırlıq işlərinin aparılması və yanacaq ehtiyatının maliyyələşdirilməsi, yaradılması, qorunması, istifadəsi, həcmi və uçotunun həyata keçirilməsi qaydalarını doqquz ay müddətində müəyyən edərək prezidentə məlumat vermək tapşırılır.

Prezidentin təsdiq etdiyi "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası" isə Energetika Nazirliyi nəzdində yaradılmış Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çox geniş səlahiyyətlər verilir. Sənəd ölkədə elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir. Bu nəzarətin məqsədi vətəndaş məmnunluğunun, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin və əlçatanlığının daha da artırılmasını, onların etibarlı, fasiləsiz, keyfiyyətli və təhlükəsiz elektrik və istilik enerjisi, habelə qaz ilə təchiz edilməsini, nəzarət edilən subyektlər tərəfindən müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların tələblərinə əməl olunmasını, qanun pozuntularının qarşısının alınmasını və yol verilmiş pozuntuların vaxtında aşkar edilərək aradan qaldırılmasını təmin etməkdir.

Qaydalara görə, agentlik məişət abonentləri istisna olmaqla, elektrik və istilik enerjisinin istehsalçıları, ötürücüləri, paylayıcıları və istehlakçıları; həmçinin qazın istehsalı, emalı, saxlanması, nəqli, paylanması, satılması, mayeləşdirilməsi, həmçinin qaz qurğularının quraşdırılması, boru kəmərlərinin tikintisi, istifadəsi, sınağı və sertifikatlaşdırılması fəaliyyətini həyata keçirənlər və istehlakçıların fəaliyyətinə nəzarət edəcək.

Qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi ilə bağlı da agentliyə mühüm səlahiyyətlər verilir. Belə ki, qurum qaz təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin hər il üzrə gəlir və xərclər smetalarının razılaşdırılmasında və onların icrasına nəzarətin həyata keçirilməsində iştirak edəcək, istehlakçıya satılan qazın keyfiyyət göstəricilərini xüsusi texniki vasitələrlə yoxlamaq səlahiyyətlərinə malik olacaq.

Bununla yanaşı, dövlət müəssisələrində qazın istehlakı limitlərinə əməl olunması, qaz təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrində hər il üçün qazın istifadəsi və payız-qış mövsümünə hazırlıq işlərinin aparılması vəziyyətini də agentlik araşdıracaq.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban hesab edir ki, təsdiq olunan qaydalarda əsas məqamlardan biri məişət abonentləri istisna olmaqla bütün digər elektrik və qaz istifadəçilərinin Energetika Nazirliyinin Enerji Məsələlərini Tənzimləmə Agentliyinin nəzarətinə keçməsidir:** "Yəni onların qeydiyyatı, istismarına nəzarət, nə qədər illik enerji sərfiyyatı, hansı qurğulardan istifadə edirlər və texniki şərtləri və sair. Sənəddə qeyd olunur ki, agentlik enerji təchizatının etibarlılığını təmin etmək məqsədilə müvafiq sahədə fəaliyyət göstərən dövlət müəssisələrində Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada yanacaq ehtiyatının maliyyələşdirilməsinə, yaradılmasına, qorunmasına, istifadəsinə, həcminə və uçotunun həyata keçirilməsinə nəzarət edir. Yəni tutaq ki, "Azərenerji" ildə nə qədər qaz və mazut istifadə edir və elektrik enerjisi istifadə edir. Bu, tikilən elektrik stansiyalarının normativ-sənədlərinə cavab verirmi, vermirsə, prezidentin də hökumət iclasında qeyd etdiyi kimi, "istismarda yeni istilik elektrik stansiyalarında xətalar buraxılmışdır və onlar öz layihə gücünə müvafiq elektrik istehsal etməmişlər" fikrinin təsdiqi demək olacaq. Yəni məqsəd səmərəliliyi artırmaqdır. Yoxsa "Azərenerji" istədiyi qədər yanacaq sifariş edirdi (təqribən 5,5 milyard m3 təbii qaz) onun pulunu da ya qismən verirdi SOCAR-a, ya da fasilələrlə illərlə yubadırdı, sonra hökumət məcbur olub silirdi... Beləcə, illərlə bazar iqtisadiyyatından uzaq səmərəsiz fəaliyyət göstərən bir təsərrüfat saxlamağa məcbur olmuşdu dövlət".

**Mütəxəssisin fikrincə, agentliyə verilən çox böyük bir səlahiyyət var:** "Elektrik və istilik enerjisi təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin hər il üzrə gəlir və xərclər smetalarının razılaşdırılmasında və onların icrasına nəzarətin həyata keçirilməsində iştirak etmək. Yəni Energetika Nazirliyi bundan sonra gələn ilin büdcəsində enerji obyektlərinin və "Azəristiliktəchizat" dövlət şirkətinin büdcə smetalarının tərtibatında birbaşa iştirak edəcək... və onlara nəzarəti də həyata keçirməlidir. Bundan sonra "dövlət müəssisələrində elektrik və istilik enerjisindən istifadə üzrə istehlak limitlərinə əməl olunması" da Energetika Nazirliyinin səlahiyyətlərinə aid ediləcək".

**❑ Dünya SAKİT,**
**"Yeni Müsavat"**

**Ali Məhkəmənin Plenumu REAL hərəkatının sədri İlqar Məmmədov barədə qərarı ləğv edib. Plenumun qərarına əsasən, Cinayət Məcəlləsinin 220.1 və 315.2-ci maddələri ilə məhkum edilməsinə dair cinayət işinin icraatı zamanı “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın müddəalarının pozulmasına dair İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 16 noyabr 2017-ci il tarixli “İlqar Məmmədov Azərbaycana qarşı” iş üzrə qərarında şərh edilmiş hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar müəyyən edib.**

# İlqar Məmmədov Şəkiyə etap olunacaq- yeni məhkəmə başlayır

## REAL həmtəsisçisi: “İnanırıq ki, yaxın vaxtlarda bu işə baxılacaq və İlqar Məmmədov azadlığa çıxacaq”



Beləliklə, İlqar Məmmədov barəsində Ali Məhkəmənin Cinayət Kollegiyasının 18 noyabr 2016-cı il tarixli və Şəki Apelyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 29 aprel 2016-cı il tarixli qərarları ləğv edilib. Cinayət işi apelyasiya qaydasında yenidən baxılması üçün Şəki Apelyasiya Məhkəməsinə göndərilib.

Xatırladaq ki, İlqar Məmmədov 2013-cü ilin yanvarında İsmayıllı hadisələri ilə bağlı həbsə alınıb. O, kütləvi iğtişaşların təşkilində ittiham edilərək, məhkəmənin qərarı ilə 7 il azadlıqdan məhrum edilib. Avropa İnsan Hüquqları Məhkəməsi onun həbsdən azad olunması ilə bağlı qərar versə də, İ.Məmmədov hələ də həbsdə qalmaqdadır. Qeyd edək ki, bu günlərdə İlqar Məmmədov bəyanat yayaraq Avropa Birliyini Azərbaycan hökuməti ilə danışıqlara getdiyi üçün ittiham edib: “Avropa Parlamentinin mən də daxil olmaqla Azərbaycanda siyasi məhbusların buraxılmayacağı təqdirdə Azərbaycanla Avropa Birliyi arasında imzalanması planlaşdırılan sazişi ratifikasiya etməyəcəyi ilə bağlı mövqeyi qənaətbəxş deyil. Avropa Parlamenti mənim işimlə bağlı 2013 və 2014-cü illərdə qətnamələr qəbul edərək dərhal və qeyd-şərtsiz azadlığa buraxılmağıma çağırıb. Avropa Parlamentinin hazırkı qətnaməsi əvvəlki mövqeyindən geri çəkilmək anlamına gəlir. Çünki ən optimist Avropa Birliyi rəsmisi sazişin ən yaxşı halda 2019-cu ilin payızında imzalanacağını proqnozlaşdırır”.

**Bəs bundan sonra nə olacaq? Şəki Apelyasiya Məhkəməsinin iclası nə zaman keçiriləcək, hansı gözləntilər var? İlqar Məmmədovun sağlıq durumu necədir?**

**REAL hərəkatının həmtəsisçisi Natiq Cəfərli bununla bağlı “Yeni Müsavat”a bunları deyib:** “Öncə onu qeyd edim ki, İlqar Məmmədovun vəziyyəti yaxşıdır, heç bir problemi yoxdur. Yeni cəzaçəkmə məntəqəsində ona heç bir problem yaradılmır. Bundan əvvəl onurğa, kürək nahiyəsində ağrıları var idi, lakin sonra müəyyən dərmanların, müalicənin köməkliyi ilə durumu ümumən qənaətbəxş oldu. Ali Məhkəmənin Plenumunun qərarından sonra İlqar Məmmədovun yenidən Şəkiyə köçürülməsi məsələsi ortaya çıxdı. Düşünürük ki, orada hansısa problem yaşana bilər. Ümid edirik ki, İlqar Məmmədov Bakıdan Şəkiyə qaydalara uyğun, yolda əziyyət çəkmədən, normal şəkildə etap olunacaq”.

**Natiq Cəfərli Şəkil Apelyasiya Məhkəməsinin iclasının hansı tarixdə keçiriləcəyi haqda məlumat olmadığını bildirdi:** “Məhkəmənin hansı qərar çıxaracağını təxmin edə bilmirik. Çünki bir dəfə də bundan əvvəl Şəki Apelyasiya Məhkəməsinin qərarı Ali Məhkəməyə göndərilmişdi və orada da qərara heç bir düzəliş etmədən, problemləri həll etmədən qüvvədə saxlanılmışdı. İndi də çox təəssüf ki, belə bir qərarın yenidən ola biləcəyi ehtimalı var. Lakin ümid edirik ki, Avropa İnsan Haqları Məhkəməsinin iki qərarını nəzərə alaraq, Şəki Apelyasiya Məhkəməsi doğru qərar qəbul edəcək. Bildiyiniz kimi, Avropa İnsan Haqları Məhkəməsinin qərarında İlqar Məmmədovun siyasi fəaliyyətinə görə həbs olunduğu və günahsız yerə həbsdə qaldığı açıq-aşkar qeyd olunub. Yeni Avropa Məhkəməsinin həm 5-ci, həm də 18-ci maddə ilə bağlı qərarı var. Hər iki maddə siyasi fəaliyyətə görə təqib olunmanı özündə ehtiva edir. Qeyd etdiyim kimi, biz ümid edirik ki, Şəki Apelyasiya Məhkəməsi bunları nəzərə alacaq. İlqar Məmmədov artıq cəzasının böyük bir hissəsini çəkib. Belə ki, avqustda onun həbsinin 5 il 6 ayı tamam olacaq. Beləliklə, cəzasının müddətinin başa çatmasına 1 il 6 ayı qalır. Bildirim ki, Şəki Apelyasiya Məhkəməsinin iclasının nə zaman təyin olacağı haqqında məlumatımız yoxdur, bu barədə bizə deyilməyib. Hüquqşünasların analiz edərək söylədikləri fikir bundan ibarətdir ki, ən azı avqustun sonu, sentyabra qədər bu iş uzana bilər. İnanırıq ki, yaxın vaxtlarda bu işə baxılacaq və pozitiv qərar olacaq, İlqar Məmmədov azadlığa çıxacaq.

Hər kəsə, cəmiyyətə də bəllidir ki, İlqar Məmmədovla qərar artıq hüquqi qərar deyil. Yeni hüquqi qərar olmaqdan çoxdan keçib, əgər olacaqsa, siyasi qərar olacaq".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Deputat Naftalanda müalicə mərkəzi tikdirir

## Hüquqşünas: “Milli Məclisin Etika komissiyası da bu faktla bağlı tədbir görməlidir”

**96 saylı Goranboy-Naftalan seçki dairəsinin deputatı Mahir Aslanovun Naftalanda müalicə-sağlamlıq mərkəzi tikdirmək istəməsi ilə bağlı məlumat yayılıb. Contact.az saytının xəbərinə görə, Naftalan Şəhər İcra Hakimiyyəti Mahir Aslanova müalicə-sağlamlıq mərkəzi (MSM) tikmək üçün artıq icazə verib.**

Sayt yazır ki, Milli Məclisin deputatı Mahir Aslanov Naftalan (Şirvan prospekti, 4C) ərazisində 0.83 hektar torpaq sahəsinə malikdir və orada iki korpusdan ibarət 7 mərtəbəli müalicə-sağlamlıq mərkəzi tikəcək.

Məlumata görə, müalicə-sağlamlıq mərkəzinin layihəsini “Arxdizayn MS” hazırlayıb. Mərkəzin sahəsi 11,3 min hektar olacaq.

Öncə onun deputat kimi fəaliyyətinə nəzər salaq. Mahir Aslanov kimdir?

İnternetdə axtarış verdikdə Mahir Aslanovla bağlı ortaya ancaq neqativ xəbərlər çıxır. Onun fəaliyyətini əks etdirən hər hansı bir vikipediya materialı belə mövcud deyil. Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü olan 4-cü çağırış üzrə deputat Mahir Aslanovun parlamentdə çıxışlarına da demək olar ki, rast gəlinmir. Onun yalnız 2016-cı ildə siqaretlə bağlı bir çıxışı ictimaiyyətə tanışdır. Həmin çıxışından sonra isə o, sosial şəbəkələrdə tənqid atəşinə tutulmuşdu. O zaman media yazırdı ki, 6 ildə bir dəfə çıxış edən Mahir Aslanov böyük problemlər qaldığı halda, siqaretdən danışıb.



Mahir Aslanov

**Aslanovun adı tikinti, mebel, logistika, klub-restoran biznesində də hallanır. 2015-ci ildə mətbuatda yazılan məqalədə qeyd olunub ki, deputatın özündə bir çox sahəni birləşdirən nəhəng biznes şəbəkəsi var. Bildirilib ki, bu şəbəkə Mahir Aslanova məxsus olan “Kəpəz Group” tikintidən tutmuş, mebel satışına qədər bir çox fərqli sahələri əhatə edir:** “Bu şirkət 1992-ci ildə fəaliyyətə başlayıb. ”Kəpəz Group" tikinti, mebel (istehsalı və daşınması), daşımaçılıq, restoran (klub), mehmanxana biznesi, həmçinin təmir və dizaynlaşdırma sahələrində fəaliyyət göstərir. Şirkət hazırda Almaniya, Türkiyə, Birləşmiş Ərəb Əmirliyi, Gürcüstan, Rusiya və Rumıniya ilə güclü əlaqələr qurub. Bundan başqa, Mahir Aslanovun onlarla iri yük daşımaçılığı ilə məşğul olan TIR-ları var".

2016-cı ildə Aslanovun adı daha çox oğlu ilə bağlı hallanıb. Belə ki, il başlar-başlamaz - yanvarın 6-da aznews.az saytında yazılan məlumatda qeyd olunur ki, Yeni il bayramı günlərində avtoxuliqanlıq edən sürücünün 10 GV 888 dövlət nömrə nişanlı “Maserati” markalı bahalı avtomobili cərimə meydançasına aparılıb. Məlum olub ki, sürücü Famil Mahir oğlu Aslanovdur. Onun iş adamı, Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü Mahir Aslanovun oğlu olduğu müəyyən edilib...

Bəs deputat biznes fəaliyyəti ilə məşğul ola bilərmi?

**“Yeni Müsavat”a danışan hüquqşünas Əsabəli Mustafayev bildirib ki, qanunlarımıza görə, deputatın biznes fəaliyyəti ilə məşğul olması birmənalı şəkildə qadağandır:** “Deputata kommersiya fəaliyyəti ilə məşğul olmaq qadağandır. Onlar ancaq elmi işlə, pedaqoji fəaliyyətlə məşğul ola bilərlər. Əgər belə bir hal varsa, mətbuat yazmalı, ictimai qınaq yaranmalıdır. Milli Məclisin Etika komissiyası da bu faktla bağlı hər hansı bir tədbir görməlidir. Onların işi bilavasitə budur”.

**“Deputatın statusu haqqında” Qanunun 17 maddəsində aşağıdakılar qeyd olunur:**

Deputat qanunazidd hərəkətlərə, habelə yüksək adına xələl gətirə biləcək davranışa, insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verməməli, başqalarını bu cür hərəkətlər etməyə çağırmamalı, Azərbaycan Respublikası Milli Məclisinin və onun komitə və komissiyalarının iclaslarının aparılması qaydalarına riayət etməlidir.

Deputatın maddi təminatı ilə bağlı olan 21-ci maddədə isə göstərilir ki, deputat hər ay vəzifə maaşı və deputatlıq səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərinin ödənilməsi üçün vergilərdən azad olunan pul təminatı alır.

Deputat nümayəndəlik səlahiyyətlərini yerinə yetirməsinə görə hər il özünün iki aylıq vəzifə maaşı məbləğində müavinət alır. Bu ilin may ayında 21-ci maddəyə edilən dəyişikliyə görə deputatların maaşları artırılıb. Belə ki, dəyişikliyə əsasən, MM-in sədri 2475 manat (əvvəl 2250 manat olub), sədrin I müavini 2227 manat (əvvəl 2015 manat olub), Milli Məclis sədrinin müavini 2103 (əvvəl 1912.5 manat), Milli Məclisin komitə sədri 1980 manat (əvvəl 1800 manat olub), komitə sədrinin müavini 1 856, sıravi deputat isə 1732 manat (əvvəl 1575 manat olub) maaş alırlar.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**



# Elektronlar kimə lazımdır

Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Akif Əlizadə magistrlərin məzun günündə çıxış edərkən gənc alimləri energetika sahəsində araşdırmalara həvəsləndirmişdir. Deyir Mingəçevir SES-də qəza Azərbaycan elminin energetika sahəsində bir qədər də inkişafını tələb edir. Guya müəyyən qədər elmi inkişaf varmış.**

Prinsipcə, Akif müəllim doğru buyurmuşdur. Doğrudan da bizim energetika elmi sahəmizdə biabırçı vəziyyətdir. Bu sahədə çoxlu anekdot və olmuş əhvalatların yaranması da təsadüfi deyil. Misal üçün, bir dəfə Qarabağın indi xaraba qalmış kəndlərindən birində işıqlar sönübmüş. Yaşlı ər-arvadın evində də öncədən işıq xəttində problem varmış, kişi fikirləşir ki, elə işıq sönmüşkən məsələni həll edim. Çıxır direyin başına, başlayır tokla əlləşməyə, arvada isə tapşırır, qonşu kənddə işıq yansa mənə deyərsən, tez əlimi çəkim. Qonşu kənd 3 kilometr aralıda olub, kişi də fikirləşib tok ordan bura çatanacan vaxt keçər. Nəsə, əhvalatın məlum sonluğunu fizikanı Misir müəllimin dövründə oxumayan oxucularımız yəqin eləmiş olarlar. Tok kişini çırpır yerə, ancaq salamat qurtarır, durub başlayır arvadı döyməyə: "Köpəyin qızı, sən qəsdən işığın qonşu kənddə yandığını gec xəbər verdin, mənim ölməyimi istəyirdin".

Bir əhvalat isə şəxsən başıma gəlib. Yaşadığım binanın blokunda elektrik şiti *(dilimizdə tərcüməsini bilmirəm, üzrlü sayın; əslində tok, rozetka, şnur, vilka və sairə kimi elektrik terminlərinin dilimizdə normal, ümumişlək tərcüməsinin olmaması da real mənzərəni açır - biz elektrikin dilini bilmirik)* yanmışdı, usta çağırdım. Usta gəldi, şiti açıb, yanmış məftillərə baxıb məndən soruşdu: "Bunun hansı noldur, hansı faza?" Dalağım sancdı, bunun yaxşı qurtarmayacağını fikirləşdim. Elə də oldu: azca qurdalanmışdı ki, tok götürüb ustanı çırpdı divara. Şükürlər olsun, salamat qaldı. Təcili pulunu verib yola saldım, dedim ta düzəltmə, ehtiyac yoxdur.

Yaxud elə son qəzada hadisə yerini hərə bir cür yazırdı. Biri Mingəçevir SES, başqası Mingəçevir İES. Hətta deyəsən, arada AES yazanlar da oldu. Əlbəttə, bizim jurnalistika "Qadın sürücü qəza törətdi" başlığı qoyacaq qədər səviyyəsizdirsə, ondan istilik elektrik stansiyası ilə su elektrik stansiyasının fərqini anlamağı gözləmirik. Buna da şükür. Rəhmətlik Ayna nənəmin əfəl adamlar haqda çəkdiyi misal burada yerinə düşür: "Allah buna bir-iki deşik açıb ki, boğulub ölməsin".

Ancaq hörmətli Akif müəllim nəinki energetika, ümumiyyətlə, başqa elm sahələrimizdə də yekun sözün ona məxsus olmadığını bizim hamımızdan gözəl bilir. Azərbaycan elmi korrupsiya, siyasi konyuktura, qohumbazlıq, yerlibazlıq, rüşvətxorluq və sairə üzündən elə kökdədir ki, ona nə qədər tok versən, süni nəfəsalma aparatına qoşsan, hətta İlon Maskın "Falkon" raketinə bağlayıb kosmosa fırlatsan düzələn deyildir. Özü də bu, tək indinin problemi sayılmaz. Misal üçün, indi ölüb deyə adını yazmıram, son 25 ildə bizim energetika alimlərimizin başında duran adamı YAP Siyasi Şurasına üzv eləmişdilər, deputat qoymuşdular. Axırı da budur: bir blok yanır, bütün sistem çökür.

Ümumiyyətlə, bizdə fizikaya, onun energetika bölümünə alim marağı mümkün deyildir. Çünki burada savadsızlıqla doktorluq işi "müdafiəsi", nə bilim, akademik adı-zadı almaq çətindir. Sadə səbəbdən: tok vurar, çəzərsən. Ən rahatı hüquq, tarix, fəlsəfə-səfsəfə, nə bilim, siyasi elmlər kimi humanitar sferalarda uydurma elmi adlar qazanmaqdır. Pulunu ver, daydayını tap, gömrükdə işlə, YAP-da aktiv ol, hardasa uçaskovılıq elə - vəssalam. Uzağı üç-dörd ilə minimum müxbir üzv adı hazırdır. "Filankəs müəllimin siyasi çıxışlarında dilçiliyin gülçülüyü", "Behmənkəs müəllimin Şah İsmayıl irsini araşdırmasının irsini araşdırmaq", "Dolma bizim yeməkdir, ermənilər gəbərsin" tipli temalarda elmi işlərimiz zibil kimidir. Hərəkət elə, başını aşağı sal, pulunu qazan. Burada elektronların hərəkəti kimə lazımdır? Heç kimə.

Akif müəllimə də lazım deyil, onu qəzavü-qədər danışdırmışdı.



# Putin-Tramp görüşünə Bakıdan baxış

## ABŞ prezidentinin Putinlə dialoqda sərt mövqe tutmaması ölkəsində qəzəblə qarşılandı; Helsinki görüşü dünyaya nə verdi?

**Rusiya və ABŞ prezidentləri Vladimir Putinlə Donald Tramp 16 iyul görüşündəki danışıqların yekunlarına dair birgə mətbuat konfransı keçiriblər, lakin birgə bəyanat qəbul etməyiblər.**

Bu barədə "RİA Novosti"yə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

"The Washington Post" qəzeti isə yazıb ki, D.Tramp köməkçiləri tərəfindən Helsinkidə Rusiya prezidenti V.Putinlə keçiriləcək görüş üçün hazırlanan 100 səhifəlik sənədin çox hissəsinə laqeyd yanaşıb.

Belə ki, D.Trampun dialoq tonu plana zidd olub: "Plana əsasən ABŞ prezidenti danışıqlarda sərt mövqe tutmalı idi. O cümlədən görüşdən əvvəl Ağ Ev rəhbərinin köməkçiləri onunla bir sıra məsələləri müzakirə ediblər, lakin Tramp danışıqlar zamanı qərarını dəyişib və danışıqları öz bildiyi kimi aparıb".

"The Washington Post"un Ağ Evdəki mənbələri deyiblər ki, Trampın Putinlə görüşdə qəti mövqe sərgiləməsini ətrafındakıların hamısı, o cümlədən prezidentin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton və dövlət katibi Maykl Pompeo da istəyib.

Ümumən görüşdən sonrakı mətbuat konfransında Tramp Krım, Donbas, Suriya, sanksiya və heç bir bu tipli mövzuya toxunmayıb. Bunun üstündə Amerikan isteblişmenti Trampı tənqid edib. CİA-nın keçmiş direktoru Brenner Trampın hərəkətlərini "xəyanətkar" adlandırıb, Demokratların Senatdakı lideri Schumer "belə çıxır Putinin əlində Trampa qarşı nəsə ifşaedici material var" deyib, Respublikaçı Mak Keyn isə Trampın performasına "utancverici" deyib. Bu qəbildən tənqidləri həm demokratlar, həm də respublikaçılar edib.

Bir sözlə, prezidentlərin görüşü ABŞ-da Trampın ünvanına çox sərt tənqidlər və ittihamların yağdırılmasına səbəb olub. Ümumilikdə demokratlar Helsinki görüşünü "Treason summit" (Xəyanət sammiti) kimi dəyərləndirirlər.

Qəzəb və hiddətin səbəbi budur ki, Tramp Rusiyanın ABŞ seçkilərinə müdaxilə etmədiyi barədə Putinin təkzibi ilə razılaşaraq öz dövlətinin müvafiq strukturlarının yekdil rəyinə və ortaya qoyduğu sübutlara etimad etmədiyini göstərib. O, Rusiya ilə münasibətlərin pisləşməsinə görə də ABŞ-ı günahlandırıb, Ukrayna məsələsini qaldırmayıb və ümumilikdə Putinin yanında aciz bir görüntü sərgiləyib.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a şərhində bildirdi ki, Trampla Putinin 16 iyul görüşü əslində nəticəsiz görüş kimi səciyyələndirilir. Çünki həm mətbuat konfransında, həm də ayrı-ayrı şəxslərin mətbuata verdiyi ötəri məlumatlarda belə təsəvvür yaranır ki, demək olar ən prinsipial məsələlərdə kompromis tapmaq mümkün olmayıb:** "Bu görüşün dünyanın taleyinə, soyuq müharibə təhlükəsinin qarşısının alınmasına, dünyada bir sıra münaqişə ocaqlarının aradan qaldırılmasına səbəb olacağına ümid edənlər ümidlərin doğrulmadığını görüb məyus olublar. Belə söyləmək mümkündür ki, görüşün keçirilməsinin özü ümumən müsbət haldır, amma görüşdən nəticələrin olmaması məyusluq hissi yaradır.

Trampın səriştəsizliyi və beynəlxalq məsələlərdə o qədər çevik olmadığı bu görüşdə üzə çıxdı. Bunu Amerika mediası da yazır. Tramp Putinlə sanki dost dilində danışmağa üstünlük verib. Putin isə bütün məsələlərdə sərt iradə ortaya qoyub. İki tərəfi də maraqlandıran məsələlərdən ən mühümü beynəlxalq münasibətlərdəki qarşıdurmanın səngidilməsi olub. Bu kontekstdə həm Suriya məsələsinə, həm də Ukraynanın şərqindəki məlum problemlərə diqqət yetirilib. Rusiya prezidenti Suriya məsələsində Astana prosesindən imtina etməyəcəklərini və bələliklə də Suriya məsələsində hər hansı kompromisə getməyəcəklərini bəyan edib. Beləliklə, Suriya məsələsində irəliləyiş əldə etmək mümkün olmayıb. Eləcə də Ukrayna məsələsində də verilən açıqlamalardan belə çıxır ki, razılaşmaya gəlinməyib. Ukrayna məsələsində Tramp israrlı mövqedə dayanmayıb. Bu isə təcrübəli Putinə imkan verib ki, Ukrayna məsələsinin üstündən tələm-tələsik keçsinlər, bu məsələ barədə dərin fikir mübadiləsi getməsin.

İran məsələsində də mövqelər dəyişməz olaraq qalır. Amerika tərəfi İran məsələsində nə qədər təkid etsə də, İranın guya Yaxın Şərq üçün ciddi təhlükə mənbəyi olduğunu israr etsə də Putin bu məsələni müzakirə etməkdə həvəsli görünməyib və nəticə etibarilə İranla bağlı məsələlər də tələm-tələsik nəzərdən keçirilib, ümumi razılaşmalar əldə etmək mümkün olmayıb.

Bütövlükdə soyuq müharibə ilə bağlı məsələlərdə, təkqütblü dünyadan çoxqütblü dünyaya keçid məsələləri ətrafında da müzakirələr demək olar heç bir nəticə verməyib. Putin dövlətinin ambisiyasını nümayiş etdirib və dolayısı ilə bildirib ki, dünyada Amerika hegemonluğuna imkan verməyəcəklər".

**Politoloqun sözlərinə görə, danışıqlara ümumu qiymət verilsə, Rusiya-ABŞ prezidentlərinin görüşünün baş tutmasının özü böyük hadisədir:** "Danışıqlarda konkret nəticələr əldə edilməsə də danışıqlar praktikasının bundan sonra da davam etdirilməsi müsbət nəticə sayıla bilər. Nəticəsiz olsa da bu görüşün dünya üçün ümumən müsbət əhəmiyyətini qeyd etmək lazımdır".

**Politoloq Elxan Şahinoğlu isə qeyd edib ki, ABŞ və Rusiya prezidentlərinin Helsinkidəki görüşlərinin ardından keçirdikləri birgə mətbuat konfransından gəlinən nəticələr bunlardır:** "Birincisi, Rusiya prezidenti Putin iki ölkə arasında terrorizmlə birgə mübarizənin aparılmasının tərəfdarıdır. Məsələn, Putin təklif edib ki, xüsusi xidmət orqanları arasındakı əməkdaşlıq davam etsin və bu, sistemli şəkil alsın. İkincisi, Putin istəyir ki, iki ölkə arasında Suriyada əməkdaşlıq formatları tapılsın. Putin Trampa kompliment edərək onun Şimali Koreya nüvə məsələsinin həllindəki yüksək rolunu vurğuladı. Halbuki Tramp özünün-külərindən narazıdır ki, niyə Amerikada onun Şimali Koreya nüvə məsələsinin həllindəki rolunu lazımınca qiymətləndirmirlər. Putin bu mənada Trampın zəif damarını tapıb. Üçüncüsü, İran məsələsində razılaşma əldə olunmadı, tərəflərin mövqelərində dəyişiklik baş vermədi, bu heç gözlənilmirdi də. Tramp İranı çökdürmək istəyir və bu planında heç bir dəyişiklik etməyəcək. Dördüncüsü, prezidentlər Suriya məsələsində də hər hansı razılıq əldə etmədilər.

Putin inanır ki, Trampla dialoq ümumi işin xeyrinədir. Ancaq Konqres və Amerikadakı müxtəlif siyasi və media mərkəzləri belə hesab etmir.

Ukrayna məsələsində tərəflərin mövqeləri dəyişməyib. Bu görüşə qədər ehtiyat edilirdi ki, Tramp Krımın ilhaqını qəbul edə bilər. Helsinkidə bu baş vermədi. Tramp üçün Ukrayna mövzusu açıq-aşkar arxa plana keçib. Halbuki Barak Obamanın dövründə Ukrayna mövzusu aktual idi. Çünki Ukraynadakı hadisələr məhz Obamanın dövründə cərəyan etmişdi. Obama özünə borc bilirdi ki, Ukraynanı dəstəkləsin. Trampın isə belə bir dərdi yoxdur.

Bu görüşə baxmayaraq, Tramp Avropanın Rusiyadan enerji asılılığının əleyhinədir və bu durumu dəyişməyə çalışır. Ancaq Tramp mətbuat konfransında Rusiyanı və Putini düşmən deyil, yaxşı mənada rəqib adlandırdı. Tramp Putinin gözünün içinə baxaraq onu düşmən adlandıra bilməzdi. Ona görə də əvvəlki ritorikasını zəiflətdi. Ancaq görüşdən sonra Tramp yenə də istədiyi kimi danışacaq".

**Politoloqun fikrincə, Helsinki görüşünün əsas nəticəsi budur ki, iki ölkə arasında müxtəlif məsələlərdə dərin fikir ayrılıqları olsa da, dialoq davam edəcək:** "Trampa və Putinə də elə bu lazım idi. Ancaq Putinin amerikalı həmkarı ilə dialoqda bir problemi yoxdursa, Trampı daxildə ciddi suallar gözləyir. Amerikadakı siyasi mərkəzlər və media ABŞ prezidentinin Putinlə dostluğunun və sıx dialoqunun əleyhinədir".

**Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Erməni inqilabı “balalarını” yeməyə başlayır - Paşinyan üçün gerisayım

## İşğalçı ölkənin yeni rəhbərliyi “köhnəlir” - etimad böhranı yaxında; İrəvanın Azərbaycana qarşı “NATO bəhanəsi” də onu xilas etməyəcək, çünki...; **qərbyönlü erməni nəşri:** “Ermənistan üçün hadisələrin sonluğu dəhşətli olacaq...”

**Ermənistanın “ümumxalq” baş naziri Nikol Paşinyan ekzotik gedişlərini davam etdirir. Avropaya ilk təmtəraqlı səfəri fiasko olan Paşinyan Brüsseldən geri dönəndən sonra ənənəvi avantürist ritorikasının dozasını bir az da artırıb, onu əlləri üstdə hakimiyyətə gətirmiş xalqın başını qatmaq və narazı kütləyə verdiyi vədləri unutdurmaq üçün yeni populist addımlar atmağa qərar verib.**

Erməni baş nazirin Avropadan qayıdan kimi işğal altındakı Qarabağa növbəti qanunsuz səfər edərək, Azərbaycanın ünvanına yeni hədyanlar söyləməsi, “müharibə hazırlığı” görüntüsü yaradıb xalqa müraciət eləməsi, bu zaman oğlu Aşotun da Qarabağda hərbi xidmətdə olduğunu xüsusi vurğulaması, daha doğrusu, ermənilərin gözünə soxması, erməniləri hər şey hazır olmağa çağırması şəksiz ki, ən əvvəl xarici siyasətdəki uğursuzluğu pərdələməyə yönəlib.

Vaxt isə keçir. Keçdikcə də “inqilabçı” xalq öz inqilabının real nəticələrini daha tez görmək istəyir - xüsusən də daxili siyasətdə, sosial-iqtisadi sahədə, öz güzəranında. Lakin ötən yazılarda qeyd elədiyimiz kimi, xarici siyasət daxili siyasətin davamı olduğundan, Ermənistan isə Rusiyanın vassalı statusu daşıdığından, daxildə inqilabi dəyişikliklər eləmək müşkülə çevrilib.

*****

Bu arada baş nazirin ardınca Ermənistanın müdafiə naziri David Tonoyan da oğlu Edqarı hərbi xidmətə yollayıb. Musavat.com erməni mediasına istinadən xəbər verib ki, E.Tonoyan 16 iyulda hərbi xidmətə gedib. O da Aşot Paşinyan kimi Azərbaycanın işğal olunmuş ərazisində - Qarabağda xidmət keçəcək.

Bu da sizə indi Ermənistanın münaqişə tərəfi və işğalçı olmasına dair növbəti sanballı fakt, eyni zamanda daha bir populist gediş. Bu cür populizmlə nə işğalçı ordunun gücünə güc qatmaq və orduya çağırışçı problemini həll eləmək mümkündür, nə ermənilərin qarnını doyurmaq və yeni iş yerləri açmaq.

Ordunu gücləndirmək üçün ilk növbədə böyük maliyyə, maliyyə üçün də güclü iqtisadiyyat və yax ən azından, böyük təbii sərvətlər lazımdır. Bunların heç biri blokada rejimində olan və dünya okeanına çıxışdan məhrum Ermənistanda yoxdur. Müşahidələr göstərir ki, hətta varlı erməni lobbisi də bütün cidd-cəhdlərə rəğmən, öz ciblərini Paşinyan hökuməti üçün həvəslə açmağa hazırlaşmır. Çünki pulunun qədrini bilir, məntiqli düşünür və islahat nağıllarına inanmır, Rusiya amilini ciddiyə alır.

Demək, Paşinyan hökuməti də Rusiyanın əlinə baxmaq, ondan ucuz silahlar dilənmək zorundadır. Lakin Rusiya silahı elə-belə yox, satellit Ermənistanın ona sadiq qalacağına möhkəm zəmanətin qarşılığında verir. Paşinyan və komandası isə öz hərəkətləri ilə artıq Moskvada ciddi şübhələr yaradıb.

Xüsusən də NATO-ya yaxınlaşmaq məsələsində o, Kremli əməllicə qıcıqlandırıb. Ermənistanın Milli Təhlükəsizlik Şurasının katibi, “Qərbin kadrı” sayılan Armen Qriqoryan isə bu günlərdə “Kommersant” qəzetinə müsahibəsində Moskvanı guya sakitləşdirmək üçün Alyansla yaxınlığı belə izah edib: **“Azərbaycan zabitləri NATO üzvü olan Türkiyədə təhsil alırlar. Biz NATO ilə əməkdaşlıq eləməklə həm bu strukturu, həm də Azərbaycan ordusunun necə fəaliyyət göstərdiyini başa düşmək istəyirik”.**

*****

Bir yandan, haqlı təlaşdır. O biri yandan baxırsan ki, yeni erməni rəhbərliyi nə istədiyini deyəsən, heç özü də bilmir. Kreml isə əskinə, çox yaxşı bilir. “Qərbçi” Paşinyan iqtidarına ən böyük təhlükə də budur - Moskvanın mümkün revanşı.

Artıq bunu yeni hökumətin qızğın təbliğatçısı olan yerli erməni KV-ləri də anlamağa başlayıb. Eyni zamanda bu KİV-lərdə Paşinyan hökumətinə qarşı tənqidin dozası artmaqdadır.

**“Vəziyyət elə gətirib ki, Ermənistanı getdikcə daha tez-tez Ukrayna ilə müqayisə ediləcək. Söhbət təkcə Rusiyanın atacağı oxşar addımlardan getmir. Həm də Ukraynadakı kimi Ermənistanda da yeni hakimiyyətə ümumxalq sevgisinin dərin məyusluqla əvəz oluna bilməsindən gedir”. “Yeni Müsavat”ın məlumatına görə, bu barədə qərbyönlü nəşrlərdən sayılan armenianreport.com-un dünənki baş məqaləsində bildirilir.**

**Məqalədə ardınca deyilir:** “Nikol Paşinyan da hakimiyyətə Viktor Yuşşenko hakimiyyətə gələn kimi - dəyişikliklərə böyük ümid dalğasında gəldi. Lakin bizim bəlamız ondadır ki, bütün əsaslar var ki, güman edək: Paşinyan öz finalı məsələsində Yuşşenko yolu gedir. Hələ ki buna az inanılır, ona görə ki, Paşinyanın reytinqi yüksəkdir. Lakin bizim həyatımızda hər şey keçicidir. Xüsusən də o vaxt ki, xalq yaxşıya sürətli dəyişikliklər görmür. Bu dəyişikliklər isə, etiraf eləmək nə qədər qəmli belə olsa, həqiqətən yoxdur gözə dəymir”.

Məqalə müəllifinə görə, üstəlik, köhnə hakimiyyət “təkərlərin arasına ağac soxur”, yerlərdə islahatların gedişini tormozlayır. “Köhnə hakimiyyət həmçinin, taladığı kapitalı Ermənistandan çıxarmaqla ölkənin maliyyə sabitliyini zəiflədir. Bürün bunları da hamı görür. Hadisələrin bu cür inkişafı ölkədəki iqtisadi situasiyanı pisləşdirməklə yanaşı, həm də yeni hakimiyyətə qarşı şübhələrə yol açır: yəni niyə hökumət böyük vəsaitlərin ölkədən çıxarılmasına imkan verir”, - deyə nəşr həyəcan təbili çalır.

“Paşinyan elə də təmiz adamlarla əhatə olunmayıb. Və onlar yekunda Ermənistanın indiki baş nazirini Ukraynada Yuşşenkonu tuş gəldiyi finala gətirə bilərlər. O zaman Ermənistan üçün hadisələrin bu cür sonluğu dəhşətli olacaq” - məqalənin sonunda qeyd edilir.

*****

Buna biz də şübhə eləmirik. Paşinyan iqtidarı üçün geri sayım artıq başlayıb. Bir azdan erməni inqilabı öz “balalarını” bir-bir yeyəcək. Erməni xalqının fiziki varlığı, sadəcə, bunu diktə edəcək...

❑ “Yeni Müsavat”ın analitik xidməti

# 4 sütunlu 5-ci kolon



Xalid KAZIMLI

**Uzun illər öncəydi, media məkanında nə çoxsaylı saytlar vardı, nə də sosial şəbəkələr mövcud idi. Əvəzində qəzetlər vardı. Bu qəzetlər siyasi mövqe baxımından rəngarəng idi. Az qala hər bir siyasi qüvvənin öz mətbu orqanı vardı. Təbii ki, bu nəşrlər informasiya yaymaqla yanaşı, siyasi təbliğat da aparırdılar.**

Həmin qəzetlərə baxanda kimin hansı mövqedə olduğunu, obrazlı desək, nə dinə-məzhəbə qulluq etdiyini bilmək olurdu.

Bir çox institutları oturuşmamış, bəzi strukturları formalaşmamış gənc respublikada heç nədən çəkinmədən qonşu dövlətlərə rəğbət bəslədiyini büruzə verən və açıq-aşkar o dövlətin xeyrinə təbliğat aparanlar vardı.

O zamanlar “5-ci kolon” söhbətləri yayğın deyildi. Rusiya imperiyasından rəsmi olaraq qopduğumuz, mental olaraq qopa bilmədiyimiz üçün, eləcə də yaxın tarixdə çoxtərəfli bağlara malik olduğumuza görə Rusiyameylli qüvvələr daha güclüydü.

Din-məzhəb birgəliyi üzündən və bunu əldə bayraq edərək, cənub qonşumuz İrana rəğbətlə yanaşan və saatını İran vaxtıyla quranlar da gündən-günə çoxalırdı.

ABŞ və qüdrətli Avropa dövlətlərinə rəğbət bəsləyənlərin də çəkinəcəyi bir şey yox idi. Onlar bəşəri dəyərləri, insan haqları, demokratik prinsipləri prioritet sayan Qərbə rəğbət bəslədiklərini heç kimdən, eləcə də mediadan gizlətmirdilər.

Bir də vardı gənc dövlətimizin regional təhlükəsizliyinin milli müstəvidə, türk qövmçülüyü prizmasında görənlər. Onlar da hesab edirdilər ki, bu dövlətin müstəqilliyinin qarantı Türkiyə-Azərbaycan qardaşlığıdır.

Türkiyənin qardaş elan edilməsi, “bir millət-iki dövlət” şüarının populyarlaşması, eləcə də hər iki ölkənin bütün rəngdən olan siyasilərinin (elm, incəsənət adamlarının) arasında çoxtərəfli əlaqələrin artması ona gətirib çıxarmışdı ki, Türkiyə “xarici ölkələr” sırasında müstəsna statusa malik idi.

Ona görə də bəzən siyasilər bir-birini “xaricə işləməkdə” günahlandıranda və qarşı tərəf bunu ciddi-cəhdlə inkar edərkən Türkiyəyə isti münasibət bəsləyənlərə qarşı nə belə ittiham səslənirdi, nə də özünü bu ittihamdan qorumağa çalışanlar olurdu.

Bununla belə, media mühitində bizə də yarızarafat-yarıgerçək şəkildə “ona qalsa, siz də Türkiyəyə yaxınsınız” kimi iradlar ünvanlanırdı.

Bir dəfə bu cür deyən həmkarlardan birinə belə cavabımız oldu: “Düzdür, biz də Türkiyəyə rəğbətlə yanaşırıq. Ona görə ki, Türkiyə də bizə rəğbətlə yanaşır, dostdur, qardaşdır, amma, Allah eləməsin, bu dövlətdən kimsə Azərbaycana qarşı yanlış mövqedə olsa, onda qarşısında birinci bizi görər”.

Bu söz havada qalmadı, gün gəldi, qardaş ölkənin siyasi rəhbərliyində ikiqanadlı bir durum yarandı və o qanadlardan biri okeanın o tayından aldığı direktivlər əsasında Ermənistanla yaxınlaşmaq, Azərbaycanın ümdə mənafelərini gözardı etmək təşəbbüsü etdi.

Sırasında bu sətirlərin müəllifi də olmaqla, Türkiyəni gerçəkdən sevən yazarlar dərhal ortaya sərt mövqe qoydular (yeri gəlmişkən, **“Sürix protokolları” adlandırılan bədnam və Azərbaycana yönəlik xain sənədlərə dair ilk təfərrüatlı məqaləni əməkdaşımız Fərhad Məmmədov yazmış və faktiki olaraq örtülü qaynayan qazanın qapağını qaldırmışdı**). Türkiyəyə rəğbəti ilə seçilən siyasi qüvvələr də aydın tənqidi mövqe sərgilədilər. Nəticəsi yaxşı oldu. Yanlış yoldan geri dönüş ildırım sürətilə baş verdi.

Bu, həm onu göstərdi ki, Türkiyədə Azərbaycanı ürəkdən sevən siyasilər daha güclüdür, həm də ondan xəbər verdi ki, qardaş ölkəyə rəğbət bəsləyən qüvvələr bunu sırf Azərbaycan dövlətinin maraqları baxımından edirlər və dövlətimizin, millətimizin əleyhinə olan hərəkətə, fikrə dözümlü yanaşmaq niyyətində deyillər.

Nə yazıq ki, digər qonşu dövlətlərə rəğbətlə yanaşan qüvvələr bu cür mövqe tuta bilmirlər. Əksinə, Azərbaycanla qonşu (eləcə də qeyri-qonşu) dövlətlərin münasibəti gərginləşəndə onlar daima həmin dövlətin tərəfində durur, onların sözünü deyir, bəzən isə aldıqları göstərişlərə uyğun olaraq hərəkətə keçirlər.

İndi həm çoxsaylı saytlarda, həm də müxtəlif sosial şəbəkələrdəki səhifələrdə kimin hansı dinə-məzhəbə qulluq etdiyi aydın şəkildə görünür. Bu meydançalarda 5-ci kolonun adamları boy göstərir.

Ən pisi odur ki, bu ölkədə ən azı dörd ayrı-ayrı “5-ci kolon” var. Onların hərəsi bir dövlətin sütunudur. Bunu şüurlu şəkildə, mənfəət naminə edənlərə etibar yoxdur, güzəşt də olmamalıdır.

Məsələnin bir tərəfi də vətəndaşın öz milli dövlətini nədən sevimli hesab etməməsi ilə bağlıdır və uzun söhbətdir, xırdalayanda gəlib məmuriyyətə dayanır. Onu da yaxın günlərdə yazarıq, sağlıq olsun.

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018



# İki həmsədr ölkənin görüşündə Qarabağ nonsensi

## Tanınmış ekspert: "Dağlıq Qarabağ münaqişəsinin həllinin Rusiya və ABŞ üçün prioritet məsələ olmadığını sübuta yetirməyə ehtiyac yoxdur"

**Rusiya prezidenti Vladimir Putinlə ABŞ prezidenti Donald Tramp arasında Finlandiyanın paytaxtı Helsinkidə iyulun 16-da baş tutan görüşdə diqqətçəkən məqamlardan biri postsovet məkanındakı münaqişə ocaqlarından ən ciddisi olan Dağlıq Qarabağ məsələsinin müzakirə edildiyi barədə heç bir açıqlama verilməməsi oldu. Bu isə Qarabağ münaqişəsi haqda liderlər arasında müzakirə olmadığı qənaətini yaradır.**

Çünki belə bir müzakirə olsaydı, keçirilən mətbuat konfransında necə ki, Ukrayna məsələsinin müzakirə edildiyini açıqladılar, elə də Dağlıq Qarabağ münaqişəsi haqda hansısa fikir ifadə edilərdi.

Bəs Putin-Tramp görüşündə Dağlıq Qarabağ məsələsinin diqqətdən kənarda qalması nədən qaynaqlanır? Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk Qrupunun üç həmsədrindən ikisi-ABŞ və Rusiya prezidentləri bir araya gəlib dünya problemlərini müzakirə edir, lakin bilavasitə özlərinin vasitəçilik etdiyi Dağlıq Qarabağ münaqişəsi haqda müzakirə aparmırlarsa, bunun səbəbi nədir? Hər an böyük müharibəyə çevrilmək riski daşıyan bir konfliktə laqeyd yanaşma nədən qaynaqlanır?

**Politoloq Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bildirdi ki, Putin-Tramp görüşündə Ukrayna, Suriya, İran məsələsinin müzakirə olunduğu barədə məlumatlar görüşün mətbuata açıqlanan tərəfidir. Adətən mətbuata açıqlanan istiqamətlər mesaj xarakteri daşıyır və hər iki dövlət üçün prioritet sayılan məsələlərin gündəmə çevrilməsinə xidmət edir. Bu görüşdə şübhəsiz ki, müzakirə olunan və açıqlanmayan məsələlərin siyahısı daha genişdir: "Dağlıq Qarabağ məsələsinə gəldikdə isə ola bilsin ki, Azərbaycan torpaqlarının işğalının davam etməsi fonunda hərbi əməliyyatların ekskalasiyası, sabitliyin uzun müddət pozulması ehtimalı müzakirə olunmasın. Burada bir neçə məqam rol oynaya bilər. Birincisi, Minsk Qrupunun həmsədri olan hər iki ölkə mövcud "status-kvo"nun qorunub saxlanılmasında maraqlıdır və ABŞ NATO-nun son zirvə toplantısında Gürcüstanın alyansa üzvlüyü ilə bağlı müzakirələrin yaratdığı aqressiv reaksiya fonunda Azərbaycan və Ermənistanla bağlı məsələni gündəmə gətirmək, münasibətləri daha da gərginləşdirmək istəmir. İkincisi, hər iki ölkə hərbi əməliyyatların ekskalasiyası faktını gözləmir və bu baxımdan da diqqətlərini özləri üçün daha prioritet hesab etdikləri məsələlər üzərində cəmləyiblər".

E.Mirzəbəyli vurğuladı ki, bütün hallarda Dağlıq Qarabağ münaqişəsinin həllinin Rusiya və ABŞ üçün prioritet məsələ olmadığını sübuta yetirməyə ehtiyac yoxdur. Hər iki ölkənin Minsk Qrupunun həmsədri kimi fəaliyyəti də belə bir qənaətə gəlməyə əsas verir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Türkiyədə iki illik FV rejimi ləğv olundu

## 15 iyul qiyamından sonra tətbiq olunan fövqəladə vəziyyət ölkədə nələri dəyişdi?

**Türkiyədə Fövqəladə Vəziyyət (FV, türkcədə OHAL - K.R.) rejimi bu gündən - iyulun 18-dən ləğv olunur. Bu barədə mediaya AKP fraksiyasının sədri Bülənt Turan məlumat verib. Eyni zamanda hakim partiya FV rejimində tətbiq olunacaq qaydalarla bağlı qanun layihəsini parlamentə təqdim edib.**

28 maddədən ibarət qanun layihəsinə əsasən şübhəli şəxsin rəsmi ittiham elan olunana qədər saxlanma müddəti 48 saatı, qrup cinayətlərində isə 4 günü keçə bilməyəcək. Həbs müddəti isə dəlillərin toplanmasında yaranan çətinlik və cinayət işinin böyük olması səbəbi ilə ən çoxu iki il uzadıla biləcək. Bundan başqa, yeni qanuna əsasən Milli Kəşfiyyat Təşkilatının (MİT) adı keçən məhkəmə proseslərində məhkəmə prosesinin şərti olaraq təklif olunan vasitəçilik üsulu tətbiq olunmayacaq.




Yeni qanuna görə, açıq havada keçirilən toplantılar, yürüşlər gecə vaxtı olduqda dağılmalıdır. Qapalı yerlərdə keçirilən toplantılar isə saat 24.00-dək keçirilə biləcək. Açıq hava yürüşləri ictimai asayişin pozulmaması şərti ilə saat 24.00-dək davam edə bilər.

Yeni sənəd layihəsi həmçinin terrorla mübarizə üsullarında da dəyişiklik nəzərdə tutur. Belə ki, ayrılıqda vilayətlər ərazisində fövqəladə vəziyyət rejimi elan etmək mümkün olacaq. Layihədə qeyd olunur ki, ictimai asayişin və təhlükəsizliyin həyatın axarını dayandıracaq və ya məhdudlaşdıracaq şəkildə pozulması və ya pozulacağına dair ciddi şübhələrin olacağı hallarda vilayət valiləri 15 gündən artıq olmamaq şərtilə vilayət ərazisində bəlli yerlərə şübhəli şəxslərin giriş və çıxışını məhdudlaşdıra biləcək. Eyni zamanda valilər ayrı-ayrı yerlərdə toplanma, gəzinti və avtomobillərin saxlanmasını məhdudlaşdıra bilərlər. Eyni qaydada silah və patronlar üçün də bu məhdudiyyətlər tətbiq oluna biləcək.

Bundan əlavə, təhlükə və cinayət riski olacağı təqdirdə məhkəmə hakiminin qərarı və ya qərarın gecikəcəyi təqdirdə hərbi hissə komandirinin əmri ilə müəyyən xüsusi ərazilərə giriş və çıxışlar zamanı insanların yoxlanması, axtarış aparılması mümkün olacaq. Ancaq axtarış aparma tələbi zamanı bunun səbəbi aydın şəkildə göstərilməli, eyni zamanda harada, nə zaman və miqyası qeyd olunmalıdır.

Qeyd edək ki, Türkiyədə iki ildir davam edən fövqəladə vəziyyət rejimi uzadılmayacağı təqdirdə də 19 iyulda avtomatik olaraq sona çatacaq. Türkiyədə FV rejimi uğursuz hərbi qiyam cəhdindən sonra tətbiq olunmağa başlayıb. 2016-cı il iyulun 20-də Türkiyə Milli Təhlükəsizlik Şurasının toplantısı və ardınca Nazirlər Kabinetinin iclası keçirilib. Burada bəlli olub ki, hökumət ölkə ərazisində Fövqəladə Vəziyyət (OHAL) elan edib. Türkiyə Respublikası Konstitusiyasının 120-ci maddəsinə əsasən, zorakılıq hallarının yayılması və ictimai nizamın ciddi şəkildə pozulması halları zamanı dövlət fövqəladə vəziyyət elan edilə bilər. Müvafiq konstitusiya maddəsində qeyd olunur ki, konstitusiya ilə qurulan azad demokratik nizamın və ya əsas haqq və azadlıqları ortadan qaldırmağa yönəlmiş kütləvi zorakılıq hallarının artması halında ölkə prezidentinin rəhbərliyi ilə toplanmış Nazirlər Kabineti, Milli Təhlükəsizlik Qurumunun da dəstəyini aldıqdan sonra ölkənin bir və ya daha çox bölgəsində, yaxud da bütün ölkə ərazisində 6 ayı keçməmək şərti ilə fövqəladə vəziyyət elan edə bilər.

Ötən müddətdə hər 6 aydan bir hökumət FV rejimini 6 ay uzatmaqla bağlı qərar qəbul edib. Bu müddətdə məhz FV dövründə KHK-lərlə hökumət terror fəaliyyətini dəstəkləyən qurum və təşkilatları qapadıb, lisenziyalarını ləğv edib və onların fəaliyyətinə son verib. Çoxlu sayda məmur və dövlət qulluqçusu işdən azad edilib.

Ancaq 24 iyun növbədənkənar prezident və parlament seçkiləri zamanı AKP hökuməti FV rejimini ləğv edəcəyini açıqlayıb. Bir neçə gün əvvəl ədliyyə naziri Əbdülhəmid Gül bəyan edib ki, qarşıdakı günlərdə FV rejimi ləğv olunacaq. Ancaq nazir bildirib ki, FV rejimi ləğv olunsa da, qiyamçılara, terrorçulara qarşı mübarizə davam edəcək, terrorun bütün təsirləri aradan qaldırılacaq.

Qeyd edək ki, Türkiyədə 20 iyul 2016-cı ildən qüvvədə olan FV rejimi dövründə 31 Qanun Hökmündə Qərarnamə (KHK) qəbul olunub. Bu KHK-ların hər biri qüvvəsində qalacaq. İlk KHK 23 iyul 2016-cı ildə, Sonuncusu isə 12 yanvar 2018-ci ildə qəbul olunub. 31 KHK ilə Ali Hərbi Şuranın strukturu dəyişdirildi, hərbi akademiyalar, hərbi liseylər və gizir hazırlayan məktəblər bağlanıb. Qoşun komandanlıqları Müdafiə Nazirliyinə tabe edilib, Gülhanə Hərbi Tibb Akademiyası və hərbi hospitallar Səhiyyə Nazirliyinə tabe etdirilib, Milli Müdafiə Universiteti təsis olunub.

15 iyul şəhidlərinin ailələri üçün imtiyazlar müəyyən olunub, Milli Kəşfiyyat Təşkilatı prezidentə tabe etdirilib, FETÖ ilə bağlantısı olan xaricdəki məktəblərin diplomlarının tanınmaması, FETÖ üzvlərinin ailələrinə verilən dövlət pasportlarının ləğv olunması, FETÖ-yə məxsus olan və qəyyum təyin olunan şirkətlərin dövlətə verilməsi barədə qərar qəbul olunub. Daha bir səs-küylü KHK isə 15 iyul qiyamının yatırılmasında iştirak edənlərin bəzi vergilərdən azad edilməsi barədə olub. Ümumilikdə FV rejimi zamanı 120 min nəfərdən çox insan işini itirib, yüzlərlə şirkət bağlanıb və əmlakı dövlətə keçib.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018

**"Biz Qarabağ problemini böyük itkilərsiz həll etmək istəyiriksə, o halda Rusiya ilə anlaşmalıyıq və onu inandırmalıyıq ki, biz sənin bölgədəki maraqlarını qoruyacağıq". BAXCP sədri, deputat Qüdrət Həsənquliyev bu fikirləri Qarabağ ətrafında yaranmış durumu "Yeni Müsavat"a şərh edərkən bildirdi.**






# "Əgər bu dəfə müharibə başlasa..."

## Qüdrət Həsənquliyev: "Paşinyanla danışıqlar baş tutmayacağı təqdirdə, hərb variantı gündəmə gələcək, bu, artıq qaçılmazdır"

Ermənistanın status-kvonu qorumağa çalışdığı, üstəlik də növbəti mənasız danışıqlarla bağlı prosesə start verildiyi şəraitdə İrəvanın qeyri-konstruktiv davranışları, hətta təhdid bəyanatları yayması prosesin savaşsız nəticə verməyəcəyi qənaətini yaradır. Elə partiya sədri də bu fikirdədir: "Onsuz da Ermənistanın Rusiyanın çevrəsindən uzaqlaşması mümkünsüzdür. Rusiya buna getməyəcəyi təqdirdə, Azərbaycan xalqı ilə açıq danışılmalıdır. O halda Azərbaycan Qarabağ uğrunda ölüm-dirim savaşına girməlidir. Mən hesab edirəm ki, bu halda çox böyük dağıntıları və itkiləri gözümüzün qarşısına almalıyıq. Ona görə ki, Rusiya Ermənistanı da kifayət qədər müasir silahlar, raket kompleksləri ilə təmin edib. Amma yenə də deyirəm, torpağımızı azad etmək istəyiriksə, biz bütün bunları gözümüzün qabağına gətirməliyik, bunu qəbul etməliyik. Vaxtilə də demişdim ki, 1941-ci ildə Azərbaycan əhalisinin sayı təqribən 3 milyona yaxın olub, amma 600 min nəfər müharibəyə gedib və onların da 400 minə yaxını həyatını itirib. Qarabağda 20 min itki vermişik, biz bunu böyük faciə kimi qəbul edirik. Təbii ki, hər bir insanın itkisi faciədir, mən demirəm ki, 20 insanın itkisi faciə deyil. Amma torpağını qorumaq, üstünə gələn işğalçıları torpağından çıxartmaq üçün bu xalq sona qədər vuruşmalıdır. Biz elə bir hərbi güc yaratmalı, formalaşdırmalıyıq ki, ermənilər proseslərin nə ilə bitəcəyini dərk etməlidirlər. Yəni qarşı tərəf birdəfəlik dərk etməlidir ki, onu kim müdafiə edir-etsin, onun tərəfində kim vuruşur-vuruşsun, Azərbaycanın əlindəki hərbi potensial işə düşsə, Ermənistanın elə bir şəhəri, kəndi qalmayacaq ki, viranəyə çevrilməsin. O halda işğalçı ölkədə daş-daş üstündə qalmayacaq".

**Deputat Naxçıvan istiqamətində son aylarda yaşanan gərginlik, ordumuzun uğurlu Günnüt əməliyyatı ilə bağlı səslənən fikirlərə də münasibət bildirdi. Qeyd edək ki, bəzi ekspertlər budəfəki savaşa Naxçıvandakı ordu hissələrinin də qoşulacağını, Ermənistana sarsıdıcı zərbələrin endiriləcəyini bildirirlər. Q.Həsənquliyev bu məsələlərdə daha tədbirli davranmağı zəruri sayır:** "Əgər bu dəfə müharibə başlasa, o halda düşünmürəm ki, biz Naxçıvandan hərbi əməliyyatlara başlamalıyıq. Hesab edirəm ki, hərbi əməliyyatlara yalnız Qarabağ istiqamətindən başlamaq lazımdır. Amma bu halda, əgər tutaq ki, Ermənistan açıq formada müharibəyə qatılacaqsa, rəsmən Azərbaycana müharibə elan edəcəksə, o halda, bəli, Azərbaycan nəinki Naxçıvan istiqamətindən, bütün istiqamətlərdən düşmənə zərbə endirməlidir. Amma ilkin mərhələdə hərbi əməliyyatlar ancaq Dağlıq Qarabağın azad olunması istiqamətdən, Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və s. istiqamətindən həyata keçirilməlidir". **Deputat danışıqların perspektivini görməyərək hərbi əməliyyatların real olduğunu da vurğuladı:** "Ümumiyyətlə, zaman gəlib çatıb, mənim müşahidələrim də ona əsas verir ki, Azərbaycan hökuməti hərb yolu ilə torpaqları azad etmək istiqamətində ciddi şəkildə düşünür. Artıq məncə, Paşinyanla danışıqlar baş tutmayacağı təqdirdə, hərb variantı gündəmə gələcək, bu, artıq qaçılmazdır. Bundan da sonra müharibə etməyəcəyiksə, bu, o deməkdir ki, biz Qarabağın işğalı ilə sadəcə sözdə barışmayacağıq, amma reallıqda artıq Qarabağın işğalı ilə barışmışıq. Yəni həm xalqımız, həm də dünya birliyi tərəfindən bu cür qəbul olunacaq".

****

ATƏT-in Minsk Qrupunun təşəbbüsü ilə Brüsseldə baş tutan Azərbaycan-Ermənistan XİN başçılarının görüşünün hansısa nəticələr verəcəyinə əvvəlcədən şübhələr var idi və gözləntilər özünü doğrultdu. Elə İrəvandan səslənən avantürist bəyanatlar, Ermənistan hakimiyyətinin təxribatçı davranışları da bunu sübut edir.

Baş nazir David Paşinyanın ardınca Ermənistanın müdafiə naziri David Tonoyan da oğlunu hərbi xidmətə yollayıb. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, Edqar Tonoyan 16 iyulda hərbi xidmətə gedib. O da Paşinyan kimi, Azərbaycanın işğal olunmuş ərazilərində, Qarabağda xidmət keçəcək. Bu fakt Ermənistan hakimiyyətinin həyasızlığının növbəti nümunəsi olmaqla yanaşı, fərari ermənilərin orduya cəlb olunması istiqamətində atılan addımdır. Xatırladaq ki, erməni ordusunda xidmətdən imtina etmiş 15 min nəfər erməni gənc ölkə xaricinə qaçıb. Amma bütün bunlar ermənilərin öz problemidir. Faktiki olaraq Ermənistan növbəti dəfə beynəlxalq hüquqa tüpürərək işğalçı mövqeyini nümayiş etdirib. Buna isə həm vasitəçi dövlətlər, həm də beynəlxalq təşkilatlar münasibət bildirməli olduqları halda, susurlar.

**Beynəlxalq təşkilatların sükutundan şirniklənən Ermənistanın baş naziri Nikol Paşinyan isə daha da azğınlaşır. "Lazım gəlsə, bütün dünya erməniləri Azərbaycana cavab zərbəsi endirmək üçün güclərini əsirgəməyəcək. Məhvinizə az qalır". Muxalifet.az xəbər verir ki, baş nazir bu sözləri facebook istifadəçilərinin suallarını cavablandırarkən deyib. O bildirib ki, son vaxtlar atəşkəs rejiminin pozulması nadir hallarda olsa da, bölgədəki hərbi-siyasi vəziyyət gərgin olaraq qalır.** "İstənilən vaxt erməni tərəfi cavab zərbəsi endirməyə hazır olmalıdır", - baş nazir qeyd edib. Bu mövqeyindən sonra onunla danışıq aparmağın heç bir mənası qalmır. Yeri gəlmişkən, Azərbaycan prezidenti Ermənistanın keçmiş rəhbərliyini cinayətlərdə ittiham etməklə faktiki olaraq Paşinyana özünü yığışdırmaq üçün şans vermişdi. Amma görünür ki, baş nazir ona verilən fürsətdən faydalanmaq, ağıllı mövqe sərgiləmək istəmir.

**Bununla yanaşı, İrəvanda Azərbaycan ordusunun işğal altındakı əraziləri azad etmək üçün yaxın günlərdə hərəkətə keçəcəyinə dair ciddi qorxular var. Publika.az xəbər verir ki, Ermənistanın baş naziri Nikol Paşinyan belə qorxularını açıq şəkildə dilə gətirib. Ermənistanın baş naziri Paşinyan Azərbaycan ordusunun cəbhəyə yeni qüvvələr topladığını iddia edib. "Azərbaycan bu addımla Ermənistan üçün məsələni adiləşdirmək və lazımi anda zərbəni vurmaq istəyir. Orduya əmr vermişəm. Biz hamımız müharibəyə hazır olmalıyıq", - deyə o bildirib. Paşinyan dünyadakı ermənilərə də səslənib:** "Dünyanın hər yerində yaşayan istənilən erməni müharibə başlayacağı təqdirdə Ermənistan ordusunda xidmət etmək üçün hazır olmalıdır". Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarında yaradılmış qondarma rejimin "prezidentinin" təhlükəsizlik məsələləri üzrə "köməkçisi" Tiqran Abramyan isə müharibənin 10 gün içində başlaya biləcəyini deyib. "Cəbhədəki hərəkətlilik müharibənin 10 gün, yaxud bir ay ərzində başlaya biləcəyini deməyə əsas verir. Azərbaycan faktiki olaraq buna hazırlaşır", - deyə separatçı iddia edib. Onun iddialarına görə, Azərbaycan Rusiyada keçirilən futbol üzrə dünya çempionatının başa çatmasını gözləyirdi.

Ermənistan tərəfi Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar zamanı, müəyyən beynəlxalq tədbirlər ərəfəsində cəbhə bölgəsində gərginlik yaratmağa, təxribatlar törətməyə cəhd edir. Son günlər ölkəmizdə yaşanan hadisələrdən istifadə edən düşmənin kəşfiyyat-diversiya qrupu Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində qoşunların təmas xəttini keçməyə cəhd göstərib. Bölmələrimizin sayıqlığı nəticəsində düşmənin təxribat cəhdinin qarşısı alınıb və itkilər verərək geri çəkilməyə məcbur edilən qrupun bir üzvü-1984-cü il təvəllüdlü Karen Kazaryan əsir götürülüb. **Ehtiyatda olan polkovnik Şair Ramaldanov azvision.az-a bildirib ki, düşmənin təxribata əl atması bizim üçün gözləniləndir, çünki Ermənistan tərəfi bundan əvvəl də dəfələrlə diversiya hücumlarına cəhd göstərib. Ehtiyatda olan polkovnik qeyd edib ki, düşmənin yeni təxribatları gözlənilir:** "Biz düşmənin növbəti təxribatlarını gözləyirik. Ordumuz istənilən təxribatın qarşısını almağa tam hazırdır".

**Ehtiyatda olan general Yaşar Aydəmirov da savaşın an məsələsi olduğu qənaətindədir. N.Paşinyanın ardınca Ermənistanın müdafiə nazirinin də öz oğlunu işğal zonasına göndərməsini növbəti təxribat hesab edən Y.Aydəmirov bunu həm də Ermənistan hakimiyyətinin əl atdığı ucuz təbliğat metodu adlandırdı:** "Bu, ucuz bir reklamdır, xal qazanmaq cəhdidir. Görək onların oğulları ön xətdəki postlarda dayanacaqlarmı? Nəinki dayanmayacaqlar, hətta onları mühafizə etmək üçün əlavə əsgər və zabitlər ayrılacaq, hər gün də İrəvana məruzə olunacaq ki, "oğullarınız sağ-salamatdır". Y.Aydəmirov Ermənistan hakimiyyətinin bütün sədləri aşdığı qənaətindədir: "Sənin Qarabağda nə işin var?" **General bildirdi ki, ermənilərin "10 günə savaş başlaya bilər" açıqlaması təəccüblü deyil:** "Savaş nəinki 10 gündən sonra, 10 saatdan sonra da başlaya bilər. Bunlar görün nə qədər qudurublar ki, Ermənistan-Azərbaycan dövlət sərhədi istiqamətindən təxribatçı qrup göndərirlər. Ona görə də işğalçının payını vermək lazımdır. Azərbaycan hər an savaşa hazırlaşır. Keçirilən hərbi təlimlərin 99 faizi hücumla bağlıdır. Ermənilər həm Qərbi Azərbaycanı, həm də Qarabağı işğal ediblər. Bizim tam haqqımız var ki, torpaqlarımızı azad edək".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018

**2018-ci ilin yanvar-iyun aylarında istehlak məhsulları ilə yanaşı ərzaq məhsullarının da qiyməti 3 faiz, qeyri-ərzaq mallarının qiymətləri 3,8 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiyməti 2,4 faiz bahalaşıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Məlumatda bildirilir ki, qiyməti bahalaşan ərzaqların siyahısında düyü, mal və toyuq əti, yumurta, zeytun, günəbaxan və qarğıdalı yağları, göyərti, şəkər tozu, dondurma, qara və yaşıl çayların adı var.**

# Ərzaq sürətlə bahalaşır - rəsmi xəbərə ekspert şərhləri

## Ekspert: "Ərzaq məhsullarının qiymətinin bundan sonra da bahalaşması baş verəcək"



Qeyd edək ki, əksəriyyət bəzi ərzaqların qiymətlərinin aşağı düşəcəyini gözləsə də, bu baş vermədi. Məsələn, ötən il ölkə prezidenti kərə yağının qiymətinin aşağı enməsi ilə bağlı tapşırıq vermişdi. Tapşırığa əsasən ölkəyə idxal edilən kərə yağının gömrük dəyəri 15 faizdən 5 faizə qədər azaldılmışdı. Ekspertlər idxal rüsumunun 3 dəfə azaldılmasının bu məhsulun pərakəndə satış qiymətinə təsirsiz ötüşməyəcəyini desə də, hazırda yenə də kərə yağının qiyməti 17 manat 90 qəpik təşkil edir.

Bəs ekspertlər sonuncu ərzaq bahalaşmasını necə şərh edir? Bahalaşma bundan sonra da davam edəcəkmi?

**Mövzu ilə bağlı iqtisadçı Rəşad Həsənov "Yeni Müsavat"a danışıb:** "Burada gözlənilməyən nəsə yoxdur. Ümumiyyətlə, inflyasiya proqnozlaşdırılırdı, xüsusən də ərzaq məhsullarında. Müşahidələr onu göstərir ki, real bazar qiymətlərində artımlar daha yüksəkdir.

Burada əsas məsələlərdən biri ondan ibarətdir ki, xüsusilə də yerli istehsal olunan məhsulların qiymətlərinin maya dəyərində artımlar baş verir. Ölkədə ərzaq məhsullarında inflyasiya tendensiyası 2015-ci ildən daha da sürətlənməyə başladı. Burada təbii ki, devalvasiyaların, Azərbaycan iqtisadiyyatının ölkədə istehsalın xammal baxımından idxaldan asılılığı kimi faktorlar öz təsirini göstərirdi.

2017-ci ilin birinci rübündə yığımların xərclənməsi prosesi başladı və beləliklə, müəyyən qədər sahibkarlar üçün qiymət artımı imkanları formalaşdı. Xüsusən də ötən ildə ərzaq məhsullarının qiymətində kəskin bahalaşma baş verdi. Bu, təxminən 16 faiz ətrafında idi. Proses 2018-ci ilə də transfer olub. Çünki elə məhsullar var ki, onların qiymətləri dünya bazarında da qalxır, dolların alıcılıq imkanları məhdudlaşır, müəyyən mənada öz alıcılıq dəyərini mərhələli şəkildə birikdirir və bu fonda inflyasiya baş verir, ərzaqların maya dəyərinə, qiymətinə təsir edir.

Əsasən ərzaq məhsullarının qiymətinin artmasının səbəbi ondan ibarətdir ki, onlar zəruri məhsullar kateqoriyasına aiddir və istehlakçı əhalinin alıcılıq səviyyəsindən tam asılı deyil, buna görə də bu sektorda fəaliyyət göstərən sahibkarların qiymətləri korreksiya etmək imkanlarını genişləndirir".

**Ekspert kərə yağının qiymətinin ucuzlaşmamasından da danışıb:** "Burada bir faktor ondan ibarətdir ki, daxili istehsal yerli tələbatı ödəmir, ölkədə əsasən istehsal olunan yağ idxal olunan yağdır. Bildiyiniz kimi, yerli istehsal olan kərə yağının keyfiyyəti də qaneedici deyil, yəni yerli istehsal olunan kərə yağı bazarda aşağı qiymətlə təklif olunsa da, onun keyfiyyəti idxal olunan yağın keyfiyyətindən daha aşağıdır. Beləliklə, alıcı bazarda idxal olunan kərə yağına üstünlük verir.

Düşünürəm ki, rüsumların azaldılmasının bazara təsir göstərməsində əsas faktorlar ondan ibarətdir ki, yerli bazarda inhisarçılıq var. İnhisarçılıq faktiki olaraq iqtisadi alətlərdən istifadə imkanlarını məhdudlaşdırır və bu alətlərdən istifadə zamanı nəticəli səviyyəsini aşağı salır.

2016-cı ildə ölkədə inhisarlığın səviyyəsi kifayət qədər artmışdı və bu, bazara kifayət qədər təsir etmişdi. Lakin 2017-ci ildən başlayaraq yeni mexanizmlər vasitəsilə yenə də idxal iştirakçısı olan subyektlərin böyük bir qismi bazardan kənarlaşdırıldı və bu fonda yenə də idxal məhsullarında bahalaşma gedir. O cümlədən bu məsələ kərə yağına aiddir ki, faktiki olaraq bazarda bu yağın rəqabətliliyi təmin olunmur və burada qiymətlərdə müəyyən qədər inhisarçılıq meylləri hiss olunur. Digər faktor da dünya bazarında kərə yağının qiymətində bahalaşmanın olmasıdır".

**Ekspert qeyd etdi ki, bahalaşma bundan sonra da davam edə bilər:** "Ölkədə daha çox xərcləmə iqtisadiyyatıdır. Bildiyiniz kimi, 2018-ci ildə dövlət büdcəsinin xərcləri təxminən 5 milyard manat artırılıb. Bu, kifayət qədər böyük göstəricidir. Bu vəsaitlər də dolayısı yolla bazarlara daxil olur, istehlak formalaşdırır. Belə bir fonda Azərbaycanda inflyasiyanın baş verməsi başadüşülən və qəbuledilləndir. Beləliklə, ərzaq məhsullarının qiymətlərinin bundan sonra da bahalaşması baş verəcək".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Karxanaların fəaliyyətinə nəzarət sərtləşdirilir

## Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi niyə yaradıldı?

**Azərbaycanda yerin təkindən istifadə sahəsində tənzimləməni həyata keçirəcək yeni qurum yaradılıb. Belə ki, prezident Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin yaradılmasına dair fərman imzalayıb.**



Fərmana görə, faydalı qazıntıların yerləşdiyi ərazilər istifadə üçün ayrılarkən bəzən mühafizə və təhlükəsizlik qaydalarına əməl edilmir, torpaqların dövlət əhəmiyyətli magistral neft-qaz və su kəmərlərinin, avtomobil və dəmir yolu körpülərinin yaxınlığında yerləşməsi nəzərə alınmır, müvafiq qurumlarla razılaşmalar aparılmır, rəylər, kommunikasiya xətləri barədə məlumatlar alınmır, coğrafi koordinatlar dəqiqləşdirilmir: "Yerin təkindən səmərəli istifadə edilməməsi, sənaye və tikintidə işlədilən xammal ehtiyatlarının hasilatı prosesində qanunvericiliyin tələblərinin pozulması arzuolunmaz hadisələrin baş verməsinə səbəb olur".

Sənəddən aydın olur ki, yeni agentlik qeyd edilən halların aradan qaldırılması, ölkənin milli sərvətlərinin, mineral xammal bazasının qorunması, təbii ehtiyatlardan səmərəli, qənaətlə istifadə olunması, xammala olan tələbatın ödənilməsi, faydalı qazıntıların çıxarılması üçün torpaq sahələrinin ayrılmasında, yer təki sahələrinin, bununla əlaqədar işlərin dövlət qeydiyyatına alınmasında, yerin təkinin geoloji öyrənilməsində və istifadəsində ciddi qayda yaradılması, qanunvericiliyin tələblərinə, müəyyən edilmiş normalara və standartlara dürüst əməl olunması, təhlükəsizliyin və şəffaflığın təmin edilməsi, ətraf mühitin, təbii landşaftın mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi məqsədilə yaradılıb.

Xatırladaq ki, iyun ayında baş verən yağıntılar zamanı Göyçay çayı üzərindəki strateji əhəmiyyətli körpüdə uçqun baş vermişdi. Həmin zaman araşdırmalarla müəyyən olunmuşdu ki, uçquna çayın yatağında fəaliyyət göstərən qum-çınqıl karxanalarının qanunsuz fəaliyyəti səbəb olub. Bu hadisə ilə bağlı cinayət işi başlanmış, bir neçə nəfər həbs olunmuşdu.

Hazırda 238 daş və qum-çınqıl karxanaları fəaliyyət göstərir ki, ondan 23-ü qanuni sənədləşmə aparılmaqla işləyir. Monitorinqlər nəticəsində 127 karxanada baş vermiş qanun pozuntusu hallarına görə inzibati protokollar yazılıb, 46 karxananın fəaliyyətində torpaq sahəsinin özbaşına zəbt olunması halları olduğundan tərtib olunmuş sənədlər tədbir görülməsi üçün hüquq mühafizə orqanlarına göndərilib.

Komitənin məlumatına əsasən qeyri-qanuni fəaliyyət göstərən karxanalar tərəfindən korlanmış torpaqlar əsasən dövlət mülkiyyətinə aid çay yataqlarında, bələdiyyələrin kənd təsərrüfatı təyinatlı və vətəndaşların özəl pay torpaqlarına aiddir.

Yeni yaradılan agentlik "Yerin təki haqqında" Qanunda nəzərdə tutulmuş yerin təkindən istifadə növləri üzrə fəaliyyətin tənzimlənməsini, habelə yerin təkinin istifadəsində və mühafizəsində qanunvericiliyə, müəyyən edilmiş standartlara və tələblərə əməl olunmasına nəzarəti həyata keçirəcək, yerin təkindən istifadə ilə bağlı müsabiqə və hərracların keçirilməsini təşkil edəcək, bu sahədə xidmətlər göstərəcək.

Fərmanla Nazirlər Kabinetinə yerin təkindən istifadə qaydalarının pozulmasına görə məsuliyyətə dair "Yerin təki haqqında" Qanunda, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş müddəaların təkmilləşdirilməsi məqsədilə qanun layihələrini üç ay müddətində hazırlayıb, yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair dövlət proqramının layihəsini altı ay müddətində hazırlayıb prezidentə təqdim etmək həvalə olunub.

Novruz Məmmədovun kabineti həmçinin faydalı qazıntı yataqlarının qanunsuz işlənməsi nəticəsində dəymiş ziyana görə normativləri, yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının yeni siyahısını iki ay müddətində prezidentlə razılaşdırmaqla müəyyən etməlidir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə altı ay müddətində yerli icra hakimiyyəti orqanlarının iştirakı ilə istismarda olan faydalı qazıntı yataqlarının və qalıq ehtiyatlarının qiymətləndirilməsini təmin etməlidir. Bundan başqa, nazirlik ölkə ərazisindəki faydalı qazıntıların növlərini əks etdirən xəritələrin elektron və kağız daşıyıcılarda hazırlanmasını, müasir texniki vasitələrin köməyi ilə monitorinqlər aparmaqla mütəmadi yenilənməsini və özünün rəsmi internet saytında yerləşdirilməsini təmin etməli, yer təki istifadəçilərinin ətraf mühitin mühafizəsinə və təhlükəsizliyinə, yerin təkindən istifadə müddətlərinə əməl etmələrinə nəzarət olunmasına imkan verən elektron qeydiyyat və nəzarət sistemi yaratmalı, bu sistemdə qanuni əsaslarla istifadəyə və icarəyə verilmiş faydalı qazıntılar yerləşən torpaqlar, onların istifadəçiləri və icarəçiləri barədə məlumatların əks olunmasını, həmin sistemin torpaqların elektron kadastr uçotu informasiya sisteminə inteqrasiyasını təmin etməlidir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Fövqəladə Hallar Nazirliyinə, Əmlak Məsələləri Dövlət Komitəsinə və yerli icra hakimiyyəti orqanlarına öz fəaliyyət istiqamətlərinə uyğun olaraq, ölkədə faydalı qazıntıların çıxarılması ilə məşğul olan, bu sahədə fəaliyyət göstərən və fəaliyyəti dayandırılmış fiziki və hüquqi şəxslərin, faydalı qazıntıların çıxarılması üçün istifadə edilən yer təki sahələrinin dəqiq uçotunu, görülən işlərin qanunvericiliyin tələblərinə uyğunluğunu müəyyən etmələri, yerin təkindən istifadə nəticəsində yerin təkinə, ətraf mühitə, təbii landşafta, özgənin əmlakına vurulmuş zərərin əvəzinin ödənilməsinin, qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunmasının və zəruri hallarda torpaqların rekultivasiyasının təmin edilməsi, habelə rekultivasiya olunmuş torpaq sahələrinin kateqoriyalara aid edilməsi və ya kateqoriyasının dəyişdirilməsi ilə bağlı tədbir görməlidilər.

Fərmanla FHN-ə hər il növbəti il üçün ölkə iqtisadiyyatının və sənayesinin tikinti materiallarına tələbatı barədə proqnoz məlumatlarını ETSN-ə təqdim etmək tapşırılır.

❑ **İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərindən sonra ilk olaraq ölkəmizə səfər etməsi və burada iki qardaş ölkənin bütün sahələrdə əməkdaşlığının inkişafı barədə yüksək səviyyəli danışıqlar aparması hər birimizin ürəyincə oldu.**

# Azərbaycan Türkiyədən hansı silahları alır?

## Hərbi ekspert: "2018-ci ilin sonuna yaxın ölkəmizin Türkiyədən və bir neçə başqa ölkədən daha güclü, müasir silahları almağı haqda da məlumatı eşidəcəyik"

Xüsusilə də torpaqlarımızın azad olunması istiqamətində qardaş ölkə ilə birgə atılan addımlar, hərbi əməkdaşlığın əzmlə davam etdirilməsi düşmənlərimizi ciddi şəkildə narahat edir. NATO ölkəsi olan və güclü orduya malik qardaş dövlətin silah arsenalından yararlanmaq baxımından da mühüm anlaşmaların əldə olunması irəliyə doğru atılan ciddi addımlardan sayıla bilər. Qeyd edək ki, iki ölkənin silahlı qüvvələrinin birgə hərbi təlimləri də işğalçı Ermənistanı və havadarlarını daim narahat edir. Elə bu ilin yazında Türkiyənin İzmir şəhərində keçirilən "Efes-2018" hərbi təlimində iştirak edən Azərbaycan hərbçiləri təlim sahəsində türk müdafiə sənayesi şirkətlərinin məhsullarının nümayiş olunduğu sərgi ilə tanış olmuşdular. Azərbaycan hərbçiləri sərgidə iştirak edən ASELSAN, ROKETSAN, HAVELSAN, MKE, BMC, Otokar, FNSS, STM, Katmercilər, Sarsılmaz, BİTES və digər şirkətlərin stendlərinə baş çəkərək nümayiş etdirilən silah və hərbi texnikalarla maraqlanıb, istehsalçı müəssisələrin rəsmilərindən məlumatlar almışdılar.

Azərbaycanın Müdafiə Sənayesi Nazirliyindən bildirilmişdi ki, nazirliyin tərkibinə daxil olan müəssisələr Türkiyənin müvafiq qurumlarından bu günə qədər 130 milyon dollar həcmində xammal və ehtiyat hissələri alıb. Sabiq nazir, mərhum Yavər Camalov demişdi ki, Azərbaycan 4 növ tapançanı Türkiyənin özəl şirkəti ilə birgə istehsal edir, həmçinin gecəgörmə nişangahlarının birgə istehsalı nəzərdə tutulur. Azərbaycanda optik nişangahların təmir servis bazasının yaradılması istiqamətində danışıqlar gedir, bundan əlavə, MP5 tapança avtomatlarının birgə istehsalı həyata keçirilir.

Bir müddət əvvəl o da bildirilmişdi ki, Azərbaycan Türkiyədən tank əleyhinə raket qurğuları almağa hazırlaşır. Bununla bağlı Türkiyənin "Roketsan" şirkəti ilə danışıqlar aparılır. Raket kompleksi orta və uzun mənzillidir. Orta mənzilli hədəf nöqtəsi 2000-4000 metr, uzaq mənzilli nöqtə isə 5000-8000 metrdir. Qurğu 4 raketdən ibarətdir. Qurğunun hərəkətdə olarkən hədəfləri müəyyən etmə qabiliyyəti var. Kompleks 360 dərəcə fırlanır. Gecə-gündüz müşahidə eləmək və hədəf seçmə kameraları var. Qurğunun hərəkət maşını təkərli və tırtıllıdır.

Azərbaycan indiyədək Türkiyədən 122 mm çaplı "T-122 Sakarya" reaktiv atəş sistemləri idxal edib. Bundan əlavə, Azərbaycan sözügedən artilleriya sistemlərində tətbiq olunan TR-122 raketini də Türkiyədən alıb. "T-122 Sakarya" reaktiv atəş sistemi və onun raketləri ROKETSAN şirkəti tərəfindən istehsal olunur. Bu raketlərin atış mənzili 40 km-dir. Bu isə Azərbaycan ordusunun mövcud 9K51 "Qrad" qurğularında tətbiq olunan raketlərin atış məsafəsindən təxminən iki dəfə çoxdur. Məlumata görə, ordumuzda, həmçinin ROKETSAN şirkətinin istehsalı olan TR-107 artırılmış mənzilli raketlərdən də istifadə olunur. TR-107 raketlərinin atış mənzili 11 km təşkil edir ki, bu MDV məkanında geniş yayılmış Rusiya və Ukrayna istehsalı olan raketlərin atış mənzilindən 3-4 km çoxdur. TR-107 raketləri atış mənzilinə, dəqiqliyinə və dağıdıcı gücünə görə öz sinfində ən mükəmməl və dünyada qəbul edilən raketlərdən hesab olunur. Qəlpə-fuqas döyüş başlığına sahib olan bu raket uzaq məsafədəki kiçik hədəflərə qarşı da effektiv tətbiq oluna bilir. Raketin ağırlığı 19.5 kq, döyüş başlığı 8.4 kq, döyüş başlığının dağıdıcı radiusu isə 14 metrdir.

Son illərdə Türkiyədən aldığımız dağıdıcı silahlardan biri də 105-130 km-lik TR-300 "Qasırğa" raketləridir. Azərbaycanın Müdafiə Nazirliyinin Türkiyənin ROKETSAN şirkətinə sifariş verdiyi "Qasırğa" komplekslərinin çatdırılmasına 2014-cü ilin sentyabr ayında başlanıb və proses 2016-cı ildə yekunlaşıb. Sistemlərin çatdırılması ilə yanaşı onu idarə edən heyətə müvafiq təlimlər keçirilib.

KamAZ avtomaşınlarının şassisi üzərində yerləşən Azərbaycan "Qasırğa"ları universal dizayna malikdir. Bu ilin yanvar ayında prezident İlham Əliyevin Naxçıvana səfərində ölkəmizdə olan bəzi yeni silahlar nümayiş etdirilib. Orada diqqət çəkən silahlardan biri də Türkiyədən aldığımız 300 mm-lik "Qasırğa" raketləri idi.

Bu raketlərin atış mənzili 130 kilometr məsafədir. GPS və İNS naviqasiyasına malik bu raketin dəqiqliyi maksimum məsafədə 30 metr təşkil edir. Raketin uzunluğu 5.24 metr, ağırlığı isə 585 kiloqramdır. "Qasırğa" ilə nəinki İrəvanı, Ermənistanın dərinliyindəki istənilən təhlükə yaradan hədəfləri məhv etmək olar. Bununla həmçinin Naxçıvanın Qarabağdakı erməni hədəflərinə də zərbələr endirmək mümkündür.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin (DSX) Türkiyənin "Otokar" şirkətindən aldığı "Cobra", ZPT və "Land Rover Defender" tipli hərbi nəqliyyat vasitəsi DSX-nın döyüş sıralarına daxil edilib. Bu döyüş texnikaları müxtəlif hərbi tapşırıqları yerinə yetirmək üçün geniş imkanlara malikdir və ən müasir silahlarla təchiz olunub. Yüksək performansı ilə seçilən 4-4 təkər formuluna malik "Cobra" 9 nəfər heyəti daşımaq imkanına malikdir. 110 km/saat sürətlə hərəkət edən "Cobra" birbaşa 752 km məsafə qət edə bilir.

Döyüş maşını heyəti mina partlayışlarından qoruya bilir. "Cobra" tipli maşınlar DŞK tipli 12.7 mm-lik ağır pulemyot, 7.62 mm-lik yüngül pulemyot və "Skif" tipli tank əleyhinə idarə olunan raketlərlə silahlandırılıb. Şəxsi heyətin, çevik qüvvələrin çətin relyefli ərazilərə daşınması üçün nəzərdə tutulan yüksək manevr imkanlarına malik "Land Rover Defender" tipli döyüş maşınları isə yüngül atıcı silahlarla silahlandırılıb.




**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, son illər Azərbaycan Silahlı Qüvvələri üçün qardaş Türkiyə Respublikasından, o cümlədən digər ölkələrdən xeyli sayda müasir silah və sursat alınması heç kimə sirr deyil:** "Biz əldə etdiyimiz həmin son nəsil silah-sursatlarla ordumuzun, digər güc strukturlarının döyüş qabiliyyətini, hazırlığını xeyli artırmışıq. Elə Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun balansında olan "Roketsan" şirkətinin son model istehsalı olan "Qasırğa" tipli raket-artilleriya kompleksləri bədnam qonşularımızın yuxusunu ərşə çəkib. Diqqət etsəniz, bir ara Naxçıvanla bağlı hədyanlar səsləndirən Ermənistan rəsmiləri və ictimaiyyət nümayəndələri, son vaxtlar daha "çaşmırlar". Daha doğrusu, çalışırlar ki, dedikləri sözə və ifadələrə diqqət etsinlər. Biz təkcə Müdafiə Nazirliyi üçün deyil, Silahlı Qüvvələrimizin digər struktur birləşmə və bölmələri üçün də kifayət qədər müasir silah və sursat əldə etmişik. Həmin silah-sursatın çox cüzi hissəsi 26 iyun Silahlı Qüvvələr günü ilə əlaqədar keçirilmiş hərbi paradda nümayiş etdirildi". **Ü.Cəfərov hərbi əməkdaşlığın əslində daha genişmiqyaslı olduğunu vurğuladı:** "Bizim ordumuzun istifadəsində hələ elə müasir silah və texnika var ki, biz onu heç bir halda düşmənə və onun havadarlarına göstərməmişik və göstərməyimiz də hələ ki məqsədəmüvafiq deyil. Onu deyim ki, ordumuzun döyüş qabiliyyəti son hesablamalara görə, ən yüksək vəziyyətdədir. Sözsüz ki, hələ xeyli işlərin görülməsinə ehtiyac var. Və hərbi komandanlıq bu işlərin nədən ibarət olmasını keçirilən mütəmadi hərbi təlim və toplanışlardan bilir və gələcəkdə onların təkrarlanmaması üçün lazım olanı edir. Onu da qeyd edim ki, bu ilin sentyabr ayında Bakıda keçirilməsi gözlənilən növbəti hərbi-texniki sərgidə biz qardaş Türkiyənin, eləcə də onlarla digər ölkələrdən təqdim olunan silah və yeni texnikalarla tanışlıq imkanı əldə edəcəyik. 2018-ci ilin sonuna yaxın ölkəmizin Türkiyədən və bir neçə başqa ölkədən daha güclü, müasir silahları almağı haqqında da məlumatı eşidəcəyik. Nə qədər ki, torpaqlarımızın bir hissəsi işğal altındadır, bu proses davam edəcək".





❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

N 153 (7042) 18 iyul 2018



## Gədəbəydə qətl: 17 yaşlı oğlanı bacısı öldürüb, yoxsa...

**Gədəbəy rayonunda 17 yaşlı oğlan bacısı tərəfindən bıçaqlanaraq öldürülüb. "Report"un məlumatına görə, hadisə rayonun Slavyanka kəndində baş verib.**

Kənd sakini, 2001-ci il təvəllüdlü Alıyev Samir Sübhan oğlu boğazından bıçaqlanaraq ölüb. Yaxınları 17 yaşlı oğlanın bədbəxt hadisə zamanı öldüyünü bildirib.

Məlumata görə, S.Alıyevin bacısı, 1998-ci il təvəllüdlü Sevinc Sübhan qızı Alıyeva əlində olan bıçaqla ehtiyatsızlıqdan qardaşının boğazına vurub. Bıçaq 17 yaşlı qardaşının boğazına girərək şah damarını kəsib.

Gədəbəy rayonunun Slavyanka kənd sakinlərinin virtualaz.org-a verdiyi məlumata görə, bacısı tərəfindən öldürülmüş 17 yaşlı gənc bacısı ilə zarafatlaşarkən qəflətən bıçaq boğazına dəyib, "şah damar"ını (yuxu arteriyasını - red.) kəsib: "Samirgil dörd uşaq idilər. Ailənin böyük qızı ərdədir. Hadisəni törədən Sevinc isə nişanlıdır. Ailə başçısı Sübhan özü qazanc dalınca Rusiyaya gedib-gələn adamdır. Kənddə hamı Alıyevlər ailəsini sakit ailə kimi tanıyır. Hadisənin ehtiyatsızlıqdan baş verdiyi bildirilir", - mənbə qeyd edib.

Gədəbəy Rayon Prokurorluğundan verilən xəbərə görə, qətlə bacı-qardaş arasındakı narazılıq səbəb olub. Sevinc Alıyeva şübhəli şəxs qismində saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi üzrə cinayət işi başlanılıb.

## Əsir və girov götürülən azərbaycanlı uşaqlarla bağlı film çəkiləcək

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dəstək Şurasının xətti ilə "Ermənistanın əsir və girov götürdüyü uşaqların əməyinin istismarı və orqan transplantasiyasına dair film çəkilişi" layihəsini həyata keçirməyi planlaşdırır. Layihənin icra dövrü 01 may - 01 sentyabr 2018 ci il tarixlərindədir və dörd ay ərzində həyata keçiriləcək.**

Layihənin məqsədi erməni vəhşiliyinin qurbanı olmuş, əsir və girov düşmüş, fiziki, cinsi və psixoloji zorakılığa məruz qalmış uşaqlar haqqında sənədli filmin çəkilişini ərsəyə gətirməkdir.

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi Azərbaycan Respublikasının Daxili İşlər Nazirinin birinci müavini İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Koordinatoru Vilayət Eyvazova, Azərbaycan Respublikasının Dövlət Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Mədət Quliyevə, qurumun İşçi qrupunun rəhbəri İsmayıl Axundova məktubla müraciət etmiş, layihə barədə məlumat vermişdir. Layihənin icrası, ssenarinin müzakirəsi ilə bağlı qurumun İşçi qrupu ilə yaradıcı heyətin görüşü təyin olunub. Görüşdə İsmayıl Axundov, Dövlət Təhlükəsizliyi Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Arif Babayev, Dövlət Komissiyası İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, yaradıcı heyət üzvləri-layihənin rejissoru Sahil Nəzərov və ssenari müəllifi Hafiz Eynullayev iştirak edib. Görüş iştirakçıları filmin ssenarisini müzakirə edərək filmdə əsasən hüquqi sənədlərə istinad etməyin vacibliyindən, Ermənistanın Azərbaycan Respublikasına, onun dinc sakinlərinə, qadın və uşaqlara etdikləri fiziki, psixoloji zorakılığın dünya ictimaiyyətinin diqqətinə çatdırılmasının vacibliyindən bəhs ediblər.

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi layihənin icrası zamanı dəstək olan qurumlara və səlahiyyətli şəxslərə öz dərin minnətdarlığını bildirir. Film 2018-ci ilin avqust ayında ictimaiyyətə təqdim olunacaq.

❑ Musavat.com

**Elan**

**1979-cu ildə 6 saylı (keçmiş 54 saylı) Texniki Peşə Məktəbinin şagirdi İsayev Sərraf Əmiraslan oğluna verilmiş diplom itdiyi üçün etibarsız sayılır.**

# Qanunsuz tikintilərlə bağlı həbslər başladı

## Buna şərait yaradan məmurlar da cəzalanacaqmı?



**Prezidentin Nazirlər Kabinetinin iclasındakı çıxışı nəticəsini verməkdədir. Həmin çıxışında Bakı şəhəri ərazisində tikintilərin qaydalara uyğun olmadan, bir çox hallarda isə onların pozulması şəraitində aparılması kəskin tənqid olunmuşdu. Prezident qeyd etmişdi ki, paytaxtda "bir çox hallarda aparılan tikintilər heç bir meyara sığmır, nə şəhərsalma meyarlarına, nə tikinti meyarlarına".**

İlham Əliyev qeyd edib ki, qanunsuz tikililərə şərait yaradan dövlət məmurları çox ciddi cəzalandırılacaq: "Mən deyirəm, bunu hamı bilsin. Çünki bir çox hallarda bu işləri bir-birinin üstünə atırlar. Şəhər icra hakimiyyəti bələdiyyələrin üstünə, bələdiyyələr şəhər icra hakimiyyətinin üstünə. Amma faktiki olaraq bələdiyyələr şəhər icra hakimiyyətinin icazəsi olmadan belə hərəkət edə bilməz. Ona görə burada vahid bir nəzarət mexanizmi olmalıdır. Bir daha demək istəyirəm ki, ilk növbədə, Bakıda və digər şəhərlərdə bütün qanunsuz tikililərə son qoyulmalıdır. Bundan sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi, icazəsi olmadan ölkəmizdə bir dənə də bina tikilməməlidir. Kim bunu edəcəksə, dərhal mənə məlumat verilsin. Həmin o adamları ən ciddi cəzalar gözləyir. Çünki biz bu qədər səy göstəririk".

**Dövlət başçısının dediyinə görə, Bakı şəhərində elə yerlər var ki, utanc gətirir:** "Binalar heç bir qaydaya riayət olunmadan biri-birinin yanında, ictimai yerlərdə, həyətlərdə tikilir. Bu binaların tikilməsinə kim icazə verir?! Yerli icra orqanları. Bu icazəni təmənnasızmı verir?! Əlbəttə ki, yox".

Onu da qeyd edək ki, prezidentin bu çıxışı müvafiq qurumların dərhal hərəkətə keçməsinə səbəb olub. Belə ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Baş Prokurorluqla birgə yaydığı məlumatdan aydın olur ki, xeyli müddətdir paytaxt sakinlərinin narazılığına səbəb olan bir bina tikintisi yarımçıq dayandırılıb. Söhbət "Fidan" MTK-nın Nəsimi rayonu, Cavadxan küçəsi 68 A ünvanında, beşmərtəbəli binaların həyətində inşa etməyə başladığı 16 mərtəbəli binadan gedir.

Tikinti ərazidə yaşayan sakinlərin Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə müraciəti əsasında dayandırılıb. Belə ki, "Fidan" MTK tərəfindən təqdim olunan ərazi planlaşdırılması sənədlərinin şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan tərtib edildiyini nəzərə alaraq və ölkə prezidentinin 24 noyabr 2014-cü il tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət Şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları"nı rəhbər tutaraq, komitə tərəfindən sözügedən ərazidə 16 mərtəbəli yaşayış binasının tikintisinə icazə verilməsindən imtina edilməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə icrası məcburi olan "Göstəriş" göndərilib. Eyni zamanda hüquqpozma faktlarının araşdırılması və aidiyyəti şəxslər barəsində qanuni tədbirlərin görülməsi məqsədilə məsələ ilə bağlı Baş Prokurorluğa müraciət edilib.

Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilkin araşdırmalarla müəyyən edib ki, həmin MTK-nın təsisçisi və sədri Şükürov Əli Şükür oğlu torpaq, şəhərsalma və tikinti sahəsindəki mövcud qanunvericiliyin tələblərini pozaraq 2018-ci ilin 1 iyul tarixindən etibarən qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan Bakı şəhəri, Nəsimi rayonu, 3231-ci məhəllə, Cavadxan küçəsi, 68A ünvanında yerləşən və dövlət mülkiyyətində olan 0,1182 hektar torpaq sahəsində özbaşına 371,3 kvadrat metr qeyri-yaşayış sahəsini söküb 1 girişli 16 mərtəbəli binanın özülü üçün qazıntı işləri aparıb. Faktla bağlı cinayət işi başlanıb. Ə.Şükürova Cinayət Məcəlləsinin 188.2 (qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti və ya quraşdırma işlərini aparma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Qeyd etmək yerinə düşər ki, prezident çıxışında qanunsuz tikintilərə icazə verən məmurların da ciddi cəzalanacağını bildirib. Prokurorluğun məlumatında bildirilir ki, "hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir".

Ümid edək ki, bu tədbirlər "Fidan" MTK və onun kimi tikinti aparan digər şirkətlərə icazə verən məmurların da cəzalanması ilə nəticələnəcək.

Xatırladaq ki, "Fidan" MTK-ya tikinti üçün torpağı Bakı Şəhər İcra Hakimiyyəti ayırıb.

❑ **TURQUT,**
**"Yeni Müsavat"**

## Sosial ev almaq istəyənləri aldadanlara cəza tələb edildi - onlardan biri polkovnikdir

### Dövlət ittihamçısı həmin şəxslərin məhkəmə zalında həbs edilməsini tələb edib

**Bakıda vətəndaşlara sosial evlər satacaqlarını vəd edərək dələduzluq etməkdə təqsirləndirilən şəxslər növbəti dəfə hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda ittiham edilən Məhəmməd Qafarov, Leyla İsmayılova, Ülviyyə Abdalova və Eldar Salayevin cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən sonuncu məhkəmə iclasında məhkəmə istintaqının başa çatdığı elan olunub.

Məhkəmə iclasında dövlət ittihamçısı çıxış edib. Prokuror çıxışında Eldar Salayevin 6 il 6 ay, Məhəmməd Qafarovun 7 il, Leyla İsmayılovanın 6 il və Ülviyyə Abdalovanın 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Dövlət ittihamçısı həmin şəxslərin məhkəmə zalında həbs edilməsini tələb edib.

Məlumata görə, təqsirləndirilən şəxslər Mənzil İnşaatı Dövlət Agentliyinin adından istifadə ediblər.

Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi və Baş Prokurorluq dələduzluq hadisəsi ilə bağlı birgə məlumat yayıb.

Məlumatda bildirilir ki, Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə müraciəti əsasında "579 SSA" MMC özəl müəssisəsinin vəzifəli şəxslərinin Agentliyin adından qanunsuz istifadə edərək dələduz hərəkətləri ilə bağlı araşdırma aparılıb.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində MMC-nin təsisçisi Salayev Eldar Ağaşirin oğlu və şirkətin direktoru vəzifəsində işləyən Qafarov Məhəmməd Elman oğlunun qabaqcadan əlbir olaraq öz qulluq mövqelərindən istifadə etməklə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən tikilən binalarda mənzil satışını həyata keçirmək səlahiyyətləri olmadığına baxmayaraq vətəndaşların etibarından sui-istifadə edərək onlara ev satacaqlarını vəd ediblər.

Cinayəti gizlətmək məqsədilə özləri tərəfindən təsdiq edilib və məzmununa bilə-bilə yalan məlumatları daxil etdikləri mənzil alqı-satqısına dair rəsmi sənədləri ona verməklə vəzifə saxtakarlığı etməklə şübhələr üçün əsaslar yarandığından fakta görə cinayət işi başlanıb.

E.Salayev və M.Qafarov Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə), 178.2.3 (dələduzluq qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 178.2.4 (dələduzluq xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan olunub.

Qeyd edək ki, təqdirləndirilən şəxslərin hər biri ev dustaqlığındadır. Onlardan Eldar Salayev Daxili İşlər Nazirliyinin sabiq polkovnikidir.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 153 (7042) 18 iyul 2018




# Yaddan çıxmaz “Qarabağ”: bu gün klubumuza dəstək olaq

## ÇL qrup mərhələsində oynamış klub üçün “Olimpiya” səddini keçmək çətin olmamalıdır

**Uşaq vaxtı dünya çempionatı bitəndən bir müddət sonra SSRİ çempionatı başlayanda oyunlara baxa bilməzdik. Sanki stadion bizə balaca, oyunçular isə cansız görünərdi.**

“Deyəsən, dünya çempionatına baş qarışdı, ”Qarabağ" yadda çıxıb". Dostlardan birinin haqlı iradı girişdə yazdıqlarımı yadıma saldı. “Sabah oynayırlar. Yaddan çıxmaz, ”Qarabağ"..." deyən həmkarıma ““Qarabağ” yaddan çıxmaz. Amma biz “Qarabağ”ın yadından çıxırıq" cavabını verməyim təsadüfi deyil. Yeri gəlib gileyimi bir-iki cümlə ilə qeyd edim. Ötən Çempionlar Liqasında klubun oyunları haqda az qala hər gün ən tirajlı qəzetdə və ən tirajlı saytda səhifə material yazdım, amma bir dəfə... o klubun mətbuat katibi şəxsim adına bir bilet belə göndərmədi. Sonra liqaya vəsiqə qazananda nəsə tədbir-filan da keçirəndə yada düşmədim. Bir klub adına təşəkkür zənginə sözünüz nə? Mən zatən, stadionda futbola baxmağı sevmirəm, mətbuat katibi ilə vaxtilə çörək kəsmişəm, məni uzaqdan-uzağa tanımır. Amma söhbət diqqətli olmaqdan gedir... Həm də tək mənə deyil, klubun təəssübünü çəkən bütün jurnalistlərə münasibətdə. Bu, müasir menecmentliyin qızıl qaydasıdır. Bunu bir dost gileyi kimi qəbul etsələr sevinərəm..

Qarabağ bizim üçün bir klub adı deyil, Qarabağ bizim vətənimiz, qanımız, canımız, ağrımız, acımızdır. “Qarabağ”ı sağ olsun, ötən mövsüm üzümüzü güldürdü, ürəyimizə məlhəm oldu. Ümid edək ki, bu il də heyətdəki dəyişikliklərə (mən buna itkilər deyərdim) baxmayaraq, Qurban Qurbanovun rəhbərliyi ilə klub azarkeşlərini sevindirəcək.

***

Məlumdur ki, 2018-2019-cu illər mövsümündə UEFA-nın klub turnirlərində dəyişikliklər qüvvəyə minib. Əsas yenilik budur ki, Çempionlar Liqasının qrup raunduna birbaşa çıxan komandaların sayı 22-dən 26-ya artırılıb. Klub reytinqində 1-4-cü yerləri tutan UEFA üzvlərinin hər birindən 4 komanda, 5-6-cı yerləri tutanların hər birindən 2 komanda, 7-10-cu yerləri tutanların çempionları, eləcə də Çempionlar Liqası və Avropa Liqasının 2018-ci il qalibləri qrup mərhələsinə birbaşa vəsiqə alıb.

Qrupa digər 6 vəsiqənin taleyinə seçmə raundlarda aydınlıq gələcək. 4 vəsiqə çempionlar, 2 vəsiqə çempion olmayan komandalar üçün nəzərdə tutulub.





Çempionlar üçün təsnifat mərhələlərinin sayı 4-dən 5-ə artırılıb. UEFA reytinqində 52-55-ci yerləri tutanların çempionları mübarizəyə ilkin təsnifatdan start verib. 18-51-ci mövqelərdə olan UEFA üzvləri turnirə birinci, 15-17-ci mövqelərdə olanlar ikinci, 13-14-cü mövqelərdə olanlar üçüncü, 11-12-ci mövqelərdə olanlar dördüncü mərhələdən başlayacaq.

Çempion olmayan komandalar qrupadək üç ələmə mərhələsindən keçəcək. 10-15-ci yerlərdə olan UEFA üzvlərinin milli çempionatında gümüş medal almış komandalar Çempionlar Liqasına ikinci, 5-6-cı yerləri tutan UEFA üzvlərinin bürünc mükafatçıları və 7-9-cu yerləri tutanların gümüş mükafatçıları üçüncü mərhələdən start verəcək.



Çempionlar Liqasının istənilən seçmə mərhələsindən ələnən komandalar Avropa Liqasına vəsiqə alacaq. Onlar Avropa Liqasında qrupa düşmək üçün bir-biriləri ilə oynayacaq. Bu istiqamət üzrə üç ələmə mərhələsi olacaq. Sırf Avropa Liqasının komandaları isə qrupa düşmək üçün beş mərhələdə yarışacaq. Bu turnirə də ilkin təsnifat raundu əlavə olunub.

***

Belə bir mürəkkəb oyun sistemi... Bəzi saytlara baxdım və belə başa düşdüm ki, “Qarabağ” bu gün “Olmpiya”nı keçsə, 2-ci təsnifat mərhələsində nisbətən zəif rəqiblə oynayacaq. 3-cü mərhələdə isə artıq güclü komandalarla üz-üzə gələcəklər. Nə qədər güclü, bunu o mərhələyə gələndə dəqiq biləcəyik.

“Qarabağ” “Olimpiya” ilə rəqib meydanında qarşılaşan gecə dünya çempionatında Belçika-Fransa yarımfinalı oynanılırdı. Amma qulağımız həm də Sloveniyadan gələcək xoş xəbəri gözləyirdi. “Qarabağ”-ın Lyublyana şəhərindəki “Stojice” stadionunda “Olimpiya”ya qalib gəlməsi uduzan Belçika komandasının məyusluğunu unutdurdu desəm, yalan olar.

Yada salaq ki, rəqib qapısından yeganə topu Vild-Donald Qerye keçirib. Ona ötən mövsüm Qurban Qurbanov çox şans vermədi. Bir-iki oyunda əvəzetmədə meydana çıxdı. Yaxşı sürətli futbolçudur, amma bir az texniki baxımdan kasaddır, bir az da rəqiblə mübarizədə sərt oynayır. Anlaşılan bu ki, “Qarabağ” irəli getmək istəyirsə, mütləq hücum xəttini gücləndirməli, gedənlərin yerinə yeni qüvvə gətirməlidir. “Qarabağ”dan gedənlər oldu, amma mən Pedro Enrikenin gedişinə çox təəssüfləndim. Braziliyalı ÇL-in ötən mövsümündə “Qarabağ” üçün ən uğurlu transfer idi. Adam peşəkar və topla professional davranırdı. İndi o da Almeydanın arxasınca Qazaxıstan “Astana”sına gedib. Deyəsən, Qriqorçuk Qazaxıstanda yeni “Qarabağ” klubu yaratmaq istəyir...

***

“Qarabağ”ın Sloveniyadakı start heyətinə baxdım və o qədər də narahat edən vəziyyət yoxdur. Hamısı tanış oyunçulardır: Maksim Medvedev, Miçel, Mahir Mədətov, Yakup Jezniçak, Bədavi Hüseynov, Coşğun Diniyev... Filip Ozobiçi “Qəbələ”dən tanıyırıq və “Qarabağ” üçün faydalı oyunçu ola bilər.

Sloveniyadakı matçın protokolunda Qara Qarayevin qırmızı kart (həm də 90-cı dəqiqədə) almasına təəccübləndim, doğrusu. Qara həm yaxşı müdafiəçidir, həm də kobudluğu ilə seçilən futbolçu deyil. Sonra özünün müsahibəsindən belə başa düşüldü ki, hakim rəqibə qırmızı kart göstərdiyi üçün “Qarabağ”dan da bir nəfəri cəzalandırıb. Bu qırmızı kartın acısını ötən mövsümdə çəkdik. Afrikalı Dino Ndlovunun (deyəsən, Çin klubuna transfer olub) aldığı qırmız kart “Qarabağ”ı xeyli zora soxdu. Amma bunlar artıq keçmişdir, önümüzə baxaq...



***

“Qarabağ”ın rəqib meydanından yaxşı nəticə ilə qayıdacağı gözlənilən idi, çünki ÇL qrup mərhələsində oynamış klub üçün “Olimpiya” səddini keçmək çətin olmamalıdır. Amma “Qarabağ”ın rəqibini məndən yaxşı tanıyanlar Sloveniya çempionunun qəliz komanda olduğunu deyirlər. Bu gün həm “Qarabağ”ın, həm “Olimpiya”nın necə oynadığını görəcəyik. Məncə, elə çoxumuz Qarabağ" üçün darıxmışıq...

**Ağasəlim Mircavadov “Qarabağ”ın ikinci təsnifat mərhələsinə asanlıqla keçəcəyini düşünmədiyini deyib.** “Hesab 0:0 olsaydı, sizinlə razılaşardım. Niyə? 1:0 uşaqlarda arxayınlıq da yarada bilər. Sona qədər oynamaq lazımdır” deyə, A.Mircavadov bildirib. Qol.az saytının əməkdaşının “”Qarabağ" “Olimpiya”nı keçsə, 2-ci təsnifat mərhələsində də nisbətən zəif rəqiblə oynayacaq. Əgər 3-cü mərhələyə adlasalar, burada artıq güclü komandalarla üz-üzə gələcəklər. Sizcə, hazırkı heyət səviyyəli komandalarla oynamaq üçün kifayət edəcəkmi" sualının cavabında narahatlığını gizlətməyib: “”Qarabağ" axıra kimi getmək istəyirsə, oyunçu seçmelidir. Bunun söhbəti yoxdur. Getdikcə rəqiblər daha da güclənəcək. Mən baxdım, birinci təsnifat mərhələsində “Seltik” kimi komanda oynayır. Hər il olmasa da, çox vaxt qruplara qalırlar. Bu isə o deməkdir ki, kifayət qədər ciddi rəqiblərlə qarşılaşa bilərlər. Nəticə əldə etmək istəyirlərsə, hər şeyə hazır olmaq lazımdır".

***

“Qarabağ” rəhbərliyi əlbəttə ki, vəziyyəti daha yaxşı qiymətləndirir və yəqin yeni transferlər üçün onlar da DÇ-nin bitməsini gözləyirdilər.

Saat 21:00-da başlayacaq qarşılaşmanı İsraildən olan hakimlər briqadası idarə edəcək. Baş hakim Erez Papirə David Elias Bitton və Eliyahu Casapu köməklik edəcək.

“Qarabağ”a Allah kömək, biz isə dəstək olaq...

***P.S.** ... Hələ dünya çempionatı havasından çıxıb, ÇL mərhələ oyunlarına köklənmək doğrudan çətindir.*

❑ **Nazim SABİROĞLU, “Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

*N 153 (7042) 18 iyul 2018*



## Yaponlar belə cehiz yığır

Çinin ən böyük şirkətlərindən birinin sahibi olan Vu Duanbiao qızına aldığı toy hədiyyələri ilə heyrət doğurur. Ölkənin cənubundakı Jinjiang şəhərində qızı üçün təşkil etdiyi 8 günlük toy dillərə dastan olub. Qızına toy hədiyyəsi olaraq dörd qutu qızılla "Porche" və "Mercedes" markalı iki lüks maşın hədiyyə edən Duanbiao sürətini ala bilmədiyi üçün qızının yatağına 3 milyon dollarlıq bir bank kitabçası qoyub. 16 milyon dollarlıq şirkət səhmini transfer etməyi yaddan çıxarmayan fabrik sahibinin hədiyyə siyahısında villa və dükanlar da əskik olmadı. Səxavətli ata son olaraq uğur gətirsin deyə iki xeyriyyə təşkilatına 10 milyon dollar da bağışladı. Çin mediasına görə, ixracat sayəsində varlanan Jinjiang şəhərində son illərdə milyarder iş adamlarının "cehiz rəqabəti" əndazəsini aşdı. Bu şəhərdə tekstil fabriki olan iş adamı keçən ay qızına buna bənzər bir cehiz hazırlamışdı. Yerli mediaya açıqlama verən gəlinin anası isə "Tək arzumuz uşağımızın bizimkindən daha yaxşı bir həyata sahib olmasıdır" dedi.

# 3 il boyunca "hamilə olan" qadın



"Daily Mail"in xəbərinə görə, Amerikada Margaret Mcmahon adlı qadın 3 il boyunca hamilə kimi gəzib. Buna səbəb bağırsaq sistemindəki problem və bunun nəticəsi olaraq yaranan şişlik olub. 48 yaşlı qadın əvvəlcə bu şişliyin hamiləliklə bağlı olmasından şübhələnsə də, sonradantomoqrafiyadan keçərək, bağırsağında bir uşaq böyüklüyündə şiş olduğunu öyrənib. Təhlükəli olmayan şişin həssas şəkildə götürülməsi lazım idi. Əməliyyat üçün gözləyən Margaret bu zaman həyatını da arxa plana atmışdı. Belə ki, qarnındakı şiş idrar kisəsinə təzyiq etdiyi üçün o da sürəkli ayaqyoluna gedirdi. 2 uşaq anası olan qadın yaşadıqları ilə bağlı "heç bitməyən hamiləlik kimid idi" deyib. Qadın düzgün diaqnoz üçün düz 3 il gözləyib. Ona bağırsaq sindromu diaqnozu qoyan həkimlər öncə arıqlamasını məsləhət gördülər. Şişi gördəndən sonra narahatlıq üçün heç nə olmadığını dedilər.

# Əgər adamda dəmir çatmırsa, arıqlaya bilməz



Dəmir çatışmazlığı bir sıra xəstəliklərə səbəb olan problemdir. Ancaq yeni araşdırmalar göstərib ki, dəmir çatışmazlığından əziyyət çəkənlər köklüyə daha meyillidirlər. Üstəlik, onlar istəsələr də arıqlaya bilmirlər. Yəni kök insanda dəmir əskikliyi varsa, o nə qədər pəhriz saxlasa da, arıqlaya bilməyəcək. Çünki dəmir çatışmazlığı müəyyən hormonların nisbətinin pozulmasına səbəb olur ki, bu da kökəlməklə nəticələnir. Dəmir çatışmazlığı arıqlama prosesinin də qarşısını alır.

Dəmir çatışmazlığına daha çox böyümə çağındakı uşaqlarda, menstruasiya olan gənc qızlarda, hamilələrdə və uşaq əmizdirən analarda, həmçinin sağlam qidalanmayan insanlarda rast gəlinir.

Hər ay mütəmadi olaraq menstruasiya keçirənlər 1 ml. qanla 5 mg. dəmir itirirlər. Bu itirilən dəmir bərpa edilməlidir. Dəmir çatışmazlığından əziyyət çəkən insanlar tez-tez acırlar. Ona görə də arıqlaya bilmir, hətta gün keçdikcə daha da kökəlirlər. Ən pisi isə odur ki, belə insanlar pəhriz saxlasalar, təhlükəli xəstəliklərə yaxalana bilərlər.

Mütəxəssislər tez-tez acan və üşüyən insanların qan azlığı və dəmir çatışmazlığından şübhələnmələrini və həkimə müraciət etmələrini tövsiyə edirlər. Əgər arıqlaya bilməməyinizin səbəbi dəmir çatışmazlığıdırsa, o zaman bol miqdarda dəmir ehtiva edən qidalar yeyərək bu problemi kökündən həll etməlisiniz.




**QOÇ** - Qarşınızda böyük perspektivlər durur. Hansı addım atacağınızdan asılı olan gələcək situasiyalar məsuliyyət hissinizi də artırmalıdır. Ağlınız kəsməyən işlərə ciddi yanaşmayın.

**BUĞA** - İstirahət haqqında düşünməyin. Çünki indiki məqamda bütün perspektivləriniz aktivliyinizdən asılıdır. Qarşıdakı həftədə görəcəyiniz işləri indidən planlaşdırın. Maraqlı görüşlər də labüddür.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvim sizin üçün o qədər də rəngarəng keçməyəcək. Yaxın olduğunuz şəxslərlə münaqişəniz gözlənilir. Fəaliyyətdə də xoşagəlməzliklər mümkündür. Odur ki, tədbirli olun.

**XƏRÇƏNG** - Hər mənada əhəmiyyətli gündür. Bir tərəfdən çoxdan görmədiyiniz adamlarla rastlaşmağınız, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə rəvan davranışlar sizə rahatlıq bəxş edəcək.

**ŞİR** - Əksər sahələrdə sevindirici hadisələrlə rastlaşma ehtimalınız var. Lakin bu, maliyyə məsələləri ilə bağlı olmayacaq. Hər halda, ovqatınıza mənfi təsir göstərən amil gözlənilmir.

**QIZ** - Bəzi cəhdləriniz uğursuzluqla nəticələnsə də, buna görə qəmlənməyə dəyməz. Çünki Göy qübbəsi nahardan sonra sizə gözlənilməz sevinc bəxş edəcək. İşdə uğurlarınız da mümkündür.

**TƏRƏZİ** - Yaxşı olar ki, ağır fiziki işlərə ara verəsiniz. Əsas gücünüzü diplomatik görüşlərə həsr edin. Mənfi enerjili ay gün boyu bürcünüzdə qərar tutduğu üçün daha diqqətli olun, xüsusən də səhhətlə bağlı.

**ƏQRƏB** - Astroloji göstəricilər saat 18-ə qədər uğurlu məqamlar yaşayacağınızı bəyan edir. Sonrakı müddəti isə neytral şəkildə başa vurun. Bu gün varlanma ehtimalınız böyükdür.

**OXATAN** - Bu gün sizə mütləq kimsə kənardan dəstək verməlidir. Yoxsa passivliyiniz aradan qalxmayacaq. Pulla bağlı problemlərinizin həllinə çalışın. İctimai yerlərdə az görünün.

**OĞLAQ** - Ciddi sınaqlarla baş-başa qaldığınızı nəzərə alan ulduzlar hər hansı riskin yolverilməz olduğunu vurğulayır. Qərar çıxararkən mövcud vəziyyəti və imkanlarınızı göz önünə gətirin.

**SUTÖKƏN** - Əsas enerjinizi sevgi münasibətlərinə yönəldin. Çünki yeganə uğurunuz bu sahə ilə bağlı olacaq. Fəaliyyət zəminində isə hansısa irəliləyişi gözləməyə dəyməz. Yalan danışmayın.

**BALIQLAR** - Ağır fiziki işlərə bir qədər ara verməyiniz tələb olunur. Əks təqdirdə, səhhətinizdə mənfi fəsadlar baş qaldıra bilər. Nahardan sonra şəxsi büdcənizi artırmaq üçün imkanlar qazanacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yaddaşını itirmişdi, 30 il sonra qayıtdı



Kanada sakini Sent Ketrins 30 il öncə unutduğu adını, eləcə də doğulduğu zamanı və məkanı xatırlayıb. 30 il bundan öncə amneziyaya uğrayan 51 yaşlı Sent sosial işçinin yanına gələrək adının Edqar Latyulip olduğunu və Ontarionun Kitçener şəhərində doğulduğnu deyib. Kanadalının sözlərinə görə, 1986-cı ildə, onun 21 yaşı olanda, əqli cəhətdən problemlər yaşayıb. Öz doğma şəhərindən Niaqara şəlaləsinə gedən yolda Latyulip başından ciddi zərbə alıb və beləcə kim olduğunu, harada yaşadığını unudub. Bütün bu illər ərzində onun adı itkin düşənlərin siyahısında olub. Hətta anası əlil olan oğlunun oğurlandığı qənaətinə gəlib. 30 il boyunca Latyulip Sent-Ketrinsdə, doğma şəhərindən saat yarımlıq məsafədə yaşayıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100